

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 mart 2026-cı il, şənbə
№ 044 (7111)
Qiymәti 60 qәpik


# Azərbaycanın tələbi!!!

## Zərifliyin, gözəlliyin, ülviyyətin rəmzi!

**Prezident 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik etdi**

Bax səh. 2



## İlham Əliyev: Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq

## Beynəlxalq birlik Azərbaycanın yanındadır

Bax səh. 3

## Sərhədlərin bağlı saxlanılması...



Bax səh. 6

## Azərbaycan qadını - gözəllik və fədakarlıq rəmzi

Bax səh. 5

## Azərbaycanın İrandakı diplomatik korpusları evakuasiyası edilir



Bax səh. 4

## Sözün və sazın zirvəsi...

**Dədə Ələsgər aşıq sənətimizin zəngin irsidir!**

Bax səh. 5

## İnvestisiyalarla bağlı yeni qayda

**Strateji əhəmiyyətə malik investisiyalar dövlət tərəfindən alınacaq**

Bax səh. 6

## Nəşriyyat zənciri

Bax səh. 8

## Yaxın Şərqdə 8-ci gün...



Bax səh. 7

# Zərifliyin, gözəlliyin, ülviyyətin rəmzi!

## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan xalqı qadın adını hər zaman zərifliyin, gözəlliyin, ülviyyətin rəmzi bilmiş və ona dərin ehtiram göstərmişdir. Mübarizələrlə dolu böyük keçmişimiz qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir. Hər bir azərbaycanlının qəlbində məhz Ana məfhumu daim doğma yurdla, Vətən torpağı ilə bağlı işıqlı duyğular yaradır. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında, dilimizin əsrlərin sınağından çıxaraq layiqincə yaşadılmasında analarımızın misilsiz xidməti vardır.

Ölkəmizdə tarixən qadının cəmiyyət həyatında fəal iştirakına həmişə rəğbət və hörmətlə yanaşılmışdır. Azərbaycan qadınlarının bir çox qabaqcıl dünya ölkələri qadınlarından daha əvvəl seçib-seçilmək hüququ əldə etmələri bu mütərəqqi münasibətin ifadəsidir. Ötən illərdə sosial-mədəni təşəbbüskarlıqları ilə yüksək ictimai mövqe və nüfuz sahibi olmuş qadınlarımız təhsil, mədəniyyət, səhiyyə və elm sahələrində bu gün də uğurla çalışmaqdadırlar. Maarifpərvər sələflərinin ənənələrini davam etdirən xanımlarımızın ölkənin müasir simasının müəyyənləşməsinə yönəlmiş çoxsaylı nailiyyətləri müstəqillik salnaməmizin qürurverici səhifələridir.

Əminəm ki, qadınlarımız gənc nəslin Vətənə və milli ideallara sədaqət ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, ictimai-mənəvi mühitimizə yeni töhfələr bəxş edəcəklər.

Əziz xanımlar!

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 6 mart 2026-cı il**



# Moldova Azərbaycanın dəstəyini yüksək qiymətləndirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbula görə dövlətimizin başçısına təşəkkür edən Mixay Popşoi Moldova Prezidenti Maya Sandunun salamlarını Prezident İlham Əliyevə çatdırdı.



Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində Moldovanın dövlət başçısı ilə görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırladı.

Mixay Popşoi İranın pilotsuz uçuş aparatları ilə Azərbaycana qarşı törətdiyi hücumları Moldovanın qətiyyətlə qınadığını dedi, bu məsələdə ölkəmizlə həmrəy olduqlarını vurğuladı. O, hücum zamanı xəsarət alanların tezliklə sağalmasını arzuladı.

Xalqlarımız arasında dostluq münasibətlərinin mövcud olmasını məmnunluqla qeyd edən qonaq dedi ki, Moldovanın çətin günlərində Azərbaycanın dəstəyini həmişə xatırlayırlar və bunu yüksək qiymətləndirirlər.

Prezident İlham Əliyev nümayiş olunan mövqeyə görə təşəkkür etdi.

Söhbət zamanı Azərbaycanın və Moldovanın daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla qeyd olundu, ikitərəfli münasibətlərimizin inkişafı, o cümlədən siyasi, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlığın dərinləşdiyi vurğulandı, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsində roluna toxunuldu. Bu xüsusda Mixay Popşoinin səfərinin uğurlu olacağına əminlik bildirildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, siyasi dialoqun intensivləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti Albaniyanın Baş nazirinə minnətdarlıq edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramaya İranın Naxçıvana etdiyi dron hücumlarından sonra Azərbaycana göstərdiyi dəstəyə görə minnətdarlıq edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezidentin "X" hesabında paylaşım edilib.

Paylaşımda deyilir: "Mən Albaniyanın Baş naziri Edi Ramaya İran dövləti tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumlarından sonra Azərbaycana göstərilən sarsılmaz dəstəyə görə ən dərin minnətdarlığımı bildirmək istəyirəm. Xalqımız nümayiş etdirdiyiniz qəti mövqeyi, həmrəyliyi və birliyi yüksək qiymətləndirir".

# Azərbaycanın tələbi!!!

## İzahat verilməlidir, üzr istənilməlidir, terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir

İrandan Naxçıvana atılan PUA-lar rəsmi Tehranın Azərbaycana qarşı növbəti terror aktıdır. Xatırladaq ki, atılan PUA-ların hədəfi mülki obyektlər olub - Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlərə hədəflənən bu namərd hücum ölkəmizin son 7 gündə nümayiş etdirdiyi yüksək qonşuluq münasibətinə, humanist davranışa, ən əsası isə, rəsmi mövqeyimizə ziddir. Bakı qarşıdurmanın ilk günündən etibarən məsələnin danışıqlar yolu ilə həllinin tərəfdarı kimi çıxış edib, bununla bağlı rəsmi bəyanat yayıb. Bunun qarşılığında İranın atdığı addımlar anlaşılan olmadığı qədər, həm də nankorluq təcəssümüdür.

**Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir...**

Cənubi Qafqazın lideri, hazırkı qlobal münasibətlər sisteminin aparıcı aktoru olan Azərbaycan hər zaman beynəlxalq ədalətin, beynəlxalq hüququn tərəfdarı kimi çıxış edib - paralel olaraq, Bakı özünün müstəqil, milli maraqlarını əhatə edən siyasətində qətiyyət nümayiş etdirib. Ölkəmiz heç vaxt ona qarşı edilən haqsızlıqları cavabsız qoymayıb. Bu, bütün hallara şamil edilir. Ölkəmizə qarşı cinayət törədən, terror aktı həyata keçirən, suverenliyimizə və ərazi bütövlüyümüzə qəsd edən, vətəndaşlarımıza qarşı təhdid və ya təhlükə törədən dövlətlər mütləq şəkildə izahat verərək üzr istəyiblər, günahkarlar isə mütləq şəkildə cinayətə cəlb olunublar. Bakının sözügedən məsələ ilə bağlı mövqeyi də dəyişməz, qəti və birmənalıdır. Prezident İham Əliyev martın 5-də Təhlükəsizlik Şurasının iclasındakı çıxışında da bildirdi ki, "Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir". Bu, Bakının qarşı tərəfdən gözlədiyi mövqedir.

**Bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq...**

Konkret olaraq, İrana gəldikdə, Naxçıvana edilən PUA hucumu ölkəmizə qarşı edilən ilk terror aktı deyil. çox uzağa getmək lazım deyil - 27 yanvar 2023-cü ildə Azərbaycanın Tehran şəhərində yerləşən səfirliyinə silahlı hücum bunun ən bariz misalıdır. Bu terror aktı nəticəsində diplomatik nümayəndəliyin mühafizə xidmətinin rəhbəri həlak olmuş, mühafizəçi yaralanmışdı. Aparılan araşdırmalar üzə çıxarmışdı ki, terrorçu bu aktı təsadüfən törətməmişdi - burada İran xüsusi xidmət orqanları tərəfindən verilən təlimatlar mövcud idi. Həmin dövrün siyasi parametrlərini göz önünə gətirsək, bir sıra faktları aydın görə bilərik - məqsəd, qalib Azərbaycanı qorxutmaq, aparılan işdən çəkindirmək, daha konkret desək, suverenliyimizin bərpasına istiqmətlənmiş qarşısıalınmaz siyasətdən döndərmək idi. Həmin dövrdə də Azərbaycan özünün qəti mövqeyini ortaya qoydu - İran ilə bütün diplomatik əlaqələr dayandırıldı. Məhz Azərbaycanın təkidi ilə cinayətkar ən ağır cəzaya məhkum edildi. Amma görünür, bu, İrana lazımi dərs olmayıb - ölkəmizə qarşı terror aktı davam edir. bu dəfə də Azərbaycanın davranışı, ritoriikası və mövqeyi ən sərt şəkildədir. Bakının rəsmi bəyanatında da bildirildiyi kimi, biz cavab haqqını özümüzdə saxlayırıq. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında da bildirdi ki, bu dəfə də cavab eyni olacaq: "Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin".

**İstənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar!**

"Kor tutduğunu buraxmadğı" kimi, İran da özünün ənənəvi səksəkəsindən xilas ola bilmir - bu ölkə dərk etmir ki, Bakı özünün müstəqil siyasi xəttinə hər zaman sadiqdir. Bizim sözümüz imzamızdır - illərdir ki, təkrarlayırıq: Azərbaycan ərazisində İrana qarşı hər hansı bir hücum və ya hərbi əməliyyatlar üçün istifadə edilməyəcək. Azərbaycan verdiyi sözə sadiqdir. İllərdir ki, İrana qarşı olan bu qədər siyasi, iqtisadi və ya hərbi təzyiqlər qarşılığında Azərbaycan özünün mövqeyini bir addım belə tərk etməyib. Baxmayaraq, İran fürsət düşdükcə, ölkəmizə qarşı hansısa qeyri-adekvat addımlar atır (Vətən müharibəsi dövründə Xudafərin üzərində baş verənlər bunun sübutudur), Azərbaycan yenə də sözünün üstündə durur. Tehranın isə hürküsü, qorxusu və ya səksəkəsi bitmək bilmir - bu dövlətə qarşı hər hansı bir addımda ilk olaraq Bakı "yada düşür". Necə ki, ötən ilin yayında İsrail ilə İran arasında baş verən hadisələr fonunda Tehran yenə də Azərbaycanı "günahlandırmağa" çalışırdı - arqumentsiz, dəlilsiz, sübutsuz və əsassız şəkildə. İllərdir ki, İranın media platformasında anti-Azərbaycan ritorika davam edir, çirkin şər-böhtan kampaniyaları aparılır. İran yalan pərdəsi arxasında öz qorxusunu gizləməyə çalışır - nədir bu qorxu? Azərbaycan dövləti bəyan edib ki, ölkəmiz bütün azərbaycanlıların dövlətidir, yurdudur.

Prezident İlham Əliyev hər zaman çıxışlarında bir məqamı önə çəkir - biz, ölkəmizin sərhədlərindən kənarda yaşayan soydaşlarımızı taleyindən də narahatıq, onları düşünürük. Amma bu o demək deyil axı ki, biz İrana qarşı hər hansı bir iddia irəli sürürük - Bakı bütün qərarlarında, davranışlarında, yanaşmalarında beynəlxalq hüququ əsas götürür. Azərbaycan bütün dövrlərdə sübut edib ki, fürsətcil deyil - necə ki, Vətən müharibəsi qalibiyyətindən sonra bizim Ermənistan torpaqların tutmaq imkanımız vardı - amma bunu etmədik, beynəlxalq hüquqa hörmətlə yanaşdıq. Azərbaycan yenə də eyni mövqedədir. Biz regionumuzda baş verən gərginliklərdən narahatıq - bununla yanaşı, məsələlərin dinc, danışıqlar yolu ilə həllinin tərəfdarıyıq. Biz bu gün də eyni mövqeni bölüşürük. Amma bu o demək deyil ki, biz özümüzə qarşı təhdidi cavabsız qoyacağıq - Əsla! Prezident İlham Əliyev çıxışında qeyd edib ki, Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək: "Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar".

**Özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir...**

Bəli, Azərbaycan bütün dövlətlərlə, xüsusilə qonşuları ilə münasibətlərə həssaslıqla yanaşır. Biz bölgəmizdə əməkdaşlığı, birliyi, sülhü və ədaləti təşviq edirik. Dövlət olaraq ən çətin anlarda qonşularımızın hər birinin yanında yer alırıq. Misallar çoxdur - Gürcüstanın ən çətin dövrlərində ona dayaq olmuşuq, İranda zəlzələ baş verən dəqiqə humanitar yardım etmişik, Ukraynaya humanitar köməyimizi əsirgəməmişik. Bir sözlə, hər bir dövlətə əlimizdən gələn yaxşılığı etmişik. İranda baş verən son hadisələrdə də eyni mövqeni paylaşdıq - qarşıdurmanın ilk günlərində Azərbaycan bəyanat verdi, xarici siyasət idarələri arasında danışıqlar oldu. Müvafiq başsağlıqları verildi və Prezidentimiz ölkəmizdəki İran səfirliyinə gedərək matəm kitabına ürək sözlərini yazdı. Bu, bir humanizm nümunəsi olmaqla yanaşı, bütün dünyada yeganə nümunə oldu - Azərbaycan Prezidentindən başqa heç bir dövlətin başçısı İran səfirliyinə getmədi, bu çətin gündə səfirlikdə başsağlığı vermədi. Bu böyük humanizmin qarşılığında İranın terrora əl atması nankorluğun, rəzilliyin nümunəsidir. Prezident İlham Əliyev də bildirib ki, "Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir".

**Namərdcə Naxçıvana zərbə endirmək...**

İranın nankorluğunun daha bir nümunəsi - Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında bildirib ki, martın 5-də səhər İranın xarici işlər nazirinin müavini Bakıya zəng edib və xahiş edib ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. "Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək", - deyə dövlət başçısı bildirib.

Göründüyü kimi, Azərbaycanın timsalında nəcib bir niyyət ortaya qoyulur. Biz hər zaman dara düşənlərin, bizdən kömək istəyənlərin yardımına gəlmişik - təmənnasız. İranın da həmçinin. Azərbaycanın bir atalar sözündə deyildiyi kimi, "biz dar günün dostuyuq". Amma bizim bu uzatdığımız yardım əlinin qarşılığında ölkəmizə qarşı xain planların qurulması, namərdcəsinə hücumların edilməsi, dinc insanlara qəsd olunması qarşı tərəfin siması(zlığı)nı tam şəkildə ortaya qoyur.

**Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar...**

Heç kim bu gün baş verənləri fürsət kimi dəyərləndirməsin, qarışılıqlığı özü üçün sui-istifadə halına gətirməsin, etdiyi əməli "təsadüfdən" saymasın. Çünki Azərbaycan dövləti təmkinli olduğu qədər də, özünün milli maraqlarına qarşı həssasdır. Biz bunu son 30 ildə sübut etmişik: bütün dünyadan sülh və ədalət tələb etdik, ərazi bütövlüyümüzün bərpasını tələb etdik - cavab gəlmədikdə "Dəmir yumruq" öz işini gördü. Azərbaycanın bütün hədələrə, təhdidlərə cavab verməyə gücü, iradəsi və imkanı var. Bizim səbrimizi sınayanların aqibəti bu gün göz önündədir. İran da bu nümunədən dərsini götürməlidir - Azərbaycana qarşı hər hansı bir səhv addım bağışlanmayacaq. Dövlətimizin başçısı çıxışında qeyd edib ki, "Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "Dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək".

**1 nömrəli hərbi səfərbərlik...**

Azərbaycan dövləti və xalqı hər zaman birdir - biz, ölkəmizə qarşı yaranan təhdidə sinə gərməyi bacarırıq. Azərbaycanın Silahlı Qüvvələri hər kəsə cavab vermək iqtidarındadır. Biz gücümüzü, iradəmizi həm 2020-ci ildə, həm də 2023-cü ildə bütün dünyaya nümayiş etdirmişik. Ölkə Prezidentinin bir əmri ilə bütün xalq ölkəsini, yurdunu qorumağa, haqsızlığa cavab verməyə hazırdır. Baş verənlər bizi daha da hazırlıqlı olmağa sövq edir. Prezident İlham Əliyev deyib ki, "Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar".

Qeyd edək ki, bir nömrəli hərbi səfərbərlik zamanı Silahlı Qüvvələr tam döyüş hazırlığına gətirilir və ehtiyatda olan hərbi qulluqçuların çağırılması həyata keçirilir. Həmçinin hərbi hissələr döyüş mövqelərinə, yaxud təyin olunmuş ərazilərə çıxarılır.

*Pərviz SADAYOĞLU*



İlham Əliyev: Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq

# Beynəlxalq birlik Azərbaycanın yanındadır

Beynəlxalq ictimaiyyət İranın pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə hücumunu pisləyib. Müxtəlif ölkələrin liderləri İranın hücumunu qəti şəkildə qınayıb, Azərbaycanla həmrəy olduqlarını ifadə ediblər.

**“Bir millət-iki dövlət”: dostluq və qardaşlıq nümunəsi**

Belə ki, martın 5-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək İran İslam Respublikası tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına edilən dron hücumunu qınadığını deyib, qardaş Azərbaycan xalqına dəstəyini ifadə edib. Dövlətimizin başçısı telefon zənginə və mövqeyinə görə Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirib.

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada sənətkarlar və sahibkarlarla keçirilən iftar məclisində də Naxçıvana edilən pilotsuz təyyarə hücumunu pisləyib. O, Azərbaycan dövlətinin başçısı ilə telefon söhbətindən danışıb: “Qardaşım
İlham Əliyevlə söhbətimdə Naxçıvan Muxtar Respublikasına edilən hücumdan təəssüfləndiyimi bildirdim və onu pislədim”. Ərdoğan, həmçinin Türkiyənin cənub sərhədi yaxınlığında İran raketinin vurulmasını da xatırladıb. “Biz İran tərəfinin diqqətini Türkiyə ilə dostluğun əhəmiyyətinə çəkdik və mehriban qonşuluq münasibətlərinə xələl gətirəcək səhvlərə yol verməməyə çağırdıq”, - deyə o qeyd edib. Türkiyə liderinin sözlərinə görə, Ankara bölgədə qan tökülməsinin və eskalasiyanın dönməz hala gəlməsinin qarşısını almaq üçün diplomatik səylərini davam etdirir. “Əminəm ki, Türkiyə bu regional turbulentlik zolağından uğurla çıxacaq”, - deyə Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

Əlbəttə, məlum hadisədən sonra dövlətimizin başçısına ilk telefon zənginin Türkiyədən gəlməsi təsadüfi deyil. Çünki iki qardaş dövlət arasında münasibətlər sarsılmazdır. “Bir millətin iki dövləti” olan Azərbaycanla Türkiyənin əlaqələri Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalıb. Bəyannaməyə əsasən zərurət yarandıqda hər iki ölkə bir birinə hərbi dəstək vermək hüququna malikdir.

**BƏƏ Azərbaycanla həmrəydir**

Azərbaycanla yaxın dost olan ölkələrdən biri də Birləşmiş Ərəb Əmirlikləridir. Martın 5-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək İranın pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə hücumunu pisləməsi, hadisə zamanı yaralananların tezliklə şəfa tapmasını diləməsi bu dostluğun bariz göstəricidir. O, həmçinin İranın ölkəsinə raket hücumları zamanı dövlətimizin başçısı tərəfindən BƏƏ-yə göstərilən dəstəyə və bu hücumu qınayan mövqeyinə görə bir daha minnətdarlığını bildirib.

Nəzərə alaq ki, son illər Azərbaycanla BƏƏ arasında münasibətlər yüksələn xətlə inkişaf edir. İndiyədək iki ölkə arasında siyasi, iqtisadi, ticari və texniki əməkdaşlıq, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması, səhiyyə və tibb elmi, hərbi əməkdaşlıq, həmçinin ali təhsil sahələrində əməkdaşlıq haqqında sazişlər imzalanıb. Prezident İlham Əliyevin ötən ayın əvvəlində bu ölkəyə işgüzar səfəri də qarşılıqlı əlaqələrin dinamik inkişafının göstəricisidir.

Dost və qardaş ölkələrdən söz düşmüşkən, Pakistanı unutmaq qətiyyən mümkün deyil. Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji əməkdaşlıq uzun illərə söykənən dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Hər iki dövlət tarix boyu bir-birinə dəstək nümayiş etdirib, beynəlxalq aləmdə ortaq maraqlara əsaslanan siyasət yürüdüb. Uzun illər boyu bu münasibətlər siyasi, iqtisadi, hərbi, mədəni-humanitar və digər sahələrdə, parlamentlər səviyyəsində inkişaf edərək daha da dərinləşib. Xüsusilə, hazırda iki ölkə arasında hərbi, müdafiə və siyasi sahədə əlaqələr güclü mövcuddur.

**Pakistan Azərbaycana qarşı hücumu qınayır**

Qeyd edək ki, martın 6-da Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Pakistanın Baş naziri İranın Azərbaycana qarşı hərbi hücumunu və terror aktlarını qınadığını bildirib, bu çətin gündə Pakistan dövləti və ordusunun Azərbaycan dövləti və ordusunun yanında olduğunu qeyd edib, Azərbaycanın Pakistana hər zaman güvənə biləcəyini deyib. Məhəmməd Şahbaz Şərif Azərbaycan-Pakistan dostluğu və qardaşlığının davam edəcəyini vurğulayıb. Dövlətimizin başçısı isə göstərilən dəstəyə və həmrəyliyə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev Azərbaycanın qardaş Pakistanın haqq işini hər zaman müdafiə edəcəyini deyib. Prezident qeyd edib ki, İran tərəfindən Azərbaycana qarşı törədilmiş bu terrorun Pakistan tərəfindən şiddətlə qınanılması Azərbaycan-Pakistan dostluğunu bir daha əks etdirir.

Azərbaycan Prezidenti və Pakistanın Baş naziri yaxşı və çətin günlərdə ölkələrimizin daim bir-birinin yanında olduqlarını və istənilən qarşılıqlı dəstəyi verməyə hazır olduqlarını vurğulayıblar. Bu fakt, əslində lazımi dairələrə ciddi mesajdır. Nəzərə alaq ki, Pakistan nüvə dövlətidir. Ona görə də, Azərbaycana qarşı olan ölkələr, o cümlədən İran diqqətli olmalıdır.

Xatırladaq ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olub ki, bu da iki ölkə arasında formalaşan sıx münasibətlərin başlanğıcı hesab edilir. Həmin dövrdən etibarən Bakı ilə İslamabad arasında strateji tərəfdaşlıq sürətlə inkişaf etməyə başlayıb, dövlətlərarası münasibətlər qarşılıqlı hörmət və etimad prinsipləri əsasında daha da möhkəmlənib. Pakistan Azərbaycan torpaqlarını işğal etdiyi üçün Ermənistanla diplomatik münasibətlər qurmayıb və münaqişənin həlli prosesində hər zaman ölkəmizin yanında olub. İkinci Qarabağ müharibəsində də bu ölkə Azərbaycanı birmənalı olaraq dəstəkləyib. Şanlı qələbəmizin 5-ci ildönümü ilə bağlı Bakıda keçirilən hərbi paradda Pakistan baş nazirinin və hərbçilərinin iştirakı da dövlətimizə dəstəyin əyani göstəricisidir.

Yeri gəlmişkən, xatırladaq ki, bir müddət öncə İran Pakistan istiqamətində də raket hücumu etsə də, layiqli cavabını aldı. Eynilə Azərbaycanın sərt mövqeyi də İranı geri çəkilməyə məcbur etdi, hərbi hissələrini sərhəddən uzaqlaşdırdı. Aydın görünür ki, İran yalnız onunla başa düşdüyü dillə danışmağı qəbul edir.



**Özbəkistan, Gürcüstan və Latviyadan telefon zəngləri...**

Dost və qardaş Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev də mövcud vəziyyətlə bağlı Prezident İlham Əliyevə zəng edərək İranın pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycana qarşı törətdiyi hücumları qətiyyətlə qınayıb, Özbəkistanın Azərbaycana tam dəstəyini ifadə edərək, ölkəsinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb. Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən dəstəyə görə Özbəkistan Prezidentinə təşəkkürünü bildirib. Dövlətimizin başçısı baş vermiş hadisə ilə bağlı məlumat verərək, hazırda vəziyyətin tam nəzarət altında olduğunu qeyd edib.

Telefon söhbəti əsnasında Azərbaycan ilə Özbəkistan arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin gələcək inkişaf perspektivləri müzakirə olunub. Hər iki dövlət başçısı Azərbaycanın və Özbəkistanın bundan sonra da daim bir-birini dəstəkləyəcəyini bir daha təsdiq ediblər.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze də Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. İrakli Kobaxidze İranın pilotsuz uçuş aparatları ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumunu qətiyyətlə pisləyərək, Azərbaycan dövləti və xalqı ilə həmrəy olduqlarını vurğulayıb. Gürcüstanın Baş naziri hücum nəticəsində xəsarət alanların tezliklə sağalmalarını arzulayıb.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən mövqeyə görə İrakli Kobaxidzeyə minnətdarlığını ifadə edib. Telefon söhbəti əsnasında Azərbaycan-Gürcüstan ikitərəfli əməkdaşlığının perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Latviyanın Prezidenti Edqars Rinkeviçs də Prezident İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı Latviya Prezidenti İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə törətdiyi hücumu qətiyyətlə pislədiyini bildirib. Edqars Rinkeviçs baş vermiş hadisə ilə bağlı Azərbaycan dövləti və xalqı ilə həmrəy olduğunu vurğulayıb, hücum nəticəsində yaralananların tezliklə şəfa tapmalarını diləyib.

**Qazaxıstan, Albaniya, İspaniya, Fransa, Monteneqro və İtaliya...**

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Naxçıvan şəhərindəki hava limanına İranın pilotsuz uçuş aparatlarının hücumunu qətiyyətlə pisləyib. O, baş verənləri qardaş və müttəfiq Azərbaycan dövlətinə qarşı akt kimi qiymətləndirib.

Albaniyanın Baş naziri Edi Rama Azərbaycanın Naxçıvan bölgəsində mülki infrastruktura qarşı İran tərəfindən həyata keçirilən hücumu qəti şəkildə pisləyib. Baş nazir özünün “X” sosial media hesabında Azərbaycan ərazisinə edilən hücumu, mülki infrastrukturun hədəfə almasını və nəticədə insanların yaralanmasını İran tərəfindən qonşu ölkələrə qarşı növbəti ağır və qəbuledilməz aqressiya aktı adlandırıb. Paylaşımında Azərbaycanı Albaniya üçün dəyərli dost və müttəfiq hesab edən Baş nazirin sözlərinə görə, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan inkişafı, rifahı və açıq əməkdaşlıq siyasəti ilə beynəlxalq arenada böyük hörmət qazanıb. “Azərbaycan xalqı, eləcə də son günlər əsassız şəkildə hədəfə alınan digər ölkələrin xalqları yalnız hörmətə, təhlükəsizliyə və təhdidlərdən uzaq həyata layiqdir. Tehrandakı rejimin mülki əhalini qorxutmaq və regionda sabitliyi pozmaq cəhdləri qətiyyətlə pislənməli və bu rejimin beynəlxalq səviyyədə daha da təcrid edilməsinə səbəb olmalıdır”, - deyə Edi Rama vurğulayıb.

İspaniya hökuməti də İranın Türkiyəyə və Azərbaycana qarşı son hücumlarını kəskin şəkildə pisləyib. Xarici İşlər Nazirliyinin X səhifəsində qeyd olunub ki, İranın mülki şəxsləri hədəf alan hücumları beynəlxalq hüquqa tamamilə ziddir. Ölkələrin suverenliyi və ərazi bütövlüyünün kobud şəkildə pozulması eskalasiya riskini artırır.

Fransa da İranın Azərbaycana dron hücumunu pisləyən ölkələrdəndir. Xarici İşlər Nazirliyinin portalında dərc olunan bəyanatda rəsmi Paris baş vermiş hücumu ən sərt şəkildə pislədiyini bəyan edib və hücum zamanı yaralanan şəxslərin tezliklə sağalmasını arzulayıb. Fransa, eyni zamanda, bu hadisə qarşısında Azərbaycanla tam həmrəy olduğunu vurğulayıb. Bəyanatda qeyd olunub ki, Naxçıvan Beynəlxalq Hava Limanına qarşı həyata keçirilmiş dron hücumu Azərbaycanın suverenliyinin və beynəlxalq hüququn açıq şəkildə pozulmasıdır. Fransa tərəfi hücumu əsassız və qəbuledilməz addım kimi qiymətləndirərək, regionda sabitliyin qorunmasının və beynəlxalq hüquqa hörmətin vacibliyini bir daha vurğulayıb.

Monteneqro da İran tərəfindən Azərbaycanın Naxçıvan bölgəsinə hücumu qətiyyətlə pisləyib. Monteneqro Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib ki, bu cür hərəkətlər regional təhlükəsizliyə və sabitliyə ciddi təhdid yaradır. “Gərginliyi azaltmaq və dialoqa qayıtmaq üçün təcili ehtiyac olduğunu vurğulayırıq. Monteneqro Azərbaycan xalqı ilə həmrəydir və dərhal gərginliyin azaldılmasına çağırır”, - deyə açıqlamada vurğulanıb.

İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli də İranın Azərbaycan Respublikası ərazisində Naxçıvan hava limanına qarşı dron hücumunu ən sərt şəkildə pisləyib.

**BMMT, TDT və TÜRKPA İranın hücumunu pisləyib**

Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Daimi Katibliyi Azərbaycana qarşı hücumla bağlı bəyanat yayıb. Bəyanatda Azərbaycanın üzv dövlət kimi üzləşdiyi hadisələrlə bağlı dərin narahatlıq bildirilib, Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə edilib. Təşkilat baş verən hadisələrdən zərər çəkən insanlara səmimi dəstəyini verərək vurğulayıb ki, bütün hallarda mülki əhalinin və həyati əhəmiyyətli xidmətlərin qorunması əsas prioritet olaraq qalmalıdır. Bildirilib ki, heç bir mülki şəxs qeyri-sabitlik və zorakılığın qurbanına çevrilməməlidir.

Türk Dövlətləri Təşkilatı (TDT) da İranın pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə hücumu ilə bağlı bəyanat yayıb. TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyevin imzası ilə yayımlanan bəyanatda bu hücumların kəskin şəkildə qınanıldığı bildirilir. Baş katib bu cür hərəkətlərin təkrarlanmasının qarşısının alınmasının vacibliyini vurğulayaraq, regional vəziyyətin daha da pisləşməsinin və bölgədə gərginliyin artması ehtimalının qarşısını almaq məqsədilə təmkinli olmağa çağırıb.

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Baş katibi, səfir Ramil Həsən də İran ərazisindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasındakı mülki obyektlərinə həyata keçirilən pilotsuz uçuş aparatlarının (PUA) hücumları ilə bağlı bəyanat yayıb. Bəyanatda İranın bu hücumu qətiyyətlə pislənilib. Bu cür hərəkətlərin mülki təhlükəsizlik və regional sabitliyə ciddi təhdid yaratdığını vurğulayan Baş katib oxşar hadisələrin qarşısının alınmasının vacibliyini bildirərək regionda vəziyyətin daha da gərginləşməməsi üçün təmkinli olmağa çağırıb. “TÜRKPA sülh və sabitlik diləyi ilə Azərbaycan hökuməti və Azərbaycan xalqının yanındadır”, - deyə bəyanatda vurğulanıb.

Qeyd edək ki, Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili, Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev, Türkiyənin xarici işlər naziri Hakan Fidan, Pakistan Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar, İsrail Dövlətinin xarici işlər naziri Gideon Sa’ar, Qırğız Respublikasının xarici işlər naziri Ceenbek Kulubayev, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan, Avstriyanın Avropa və beynəlxalq məsələlər üzrə federal naziri Beate Maynl-Rayzinger Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vuraraq hücumlardan narahatlıq ifadə ediblər.

***Nardar BAYRAMLI***

# Milli Məclisin Komissiyası İranın Naxçıvana PUA hücumlarına dair Bəyanat qəbul edib



Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı Komissiyası Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikası ərazisindən olunan PUA hücumlarına dair Bəyanat qəbul edib.

Bəyanatda deyilir: “2026-cı il martın 5-də Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən partlayan döyüş başlığı ilə təchiz edilmiş pilotsuz uçuş aparatları (PUA) ilə hücumlar həyata keçirilib.

PUA-lardan biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasını zədələyib, digəri isə Babək rayonunun Şəkərabad kəndində orta məktəb binasının yaxınlığına düşüb. Hücumlar zamanı dörd nəfər mülki şəxsin xəsarət aldığı müəyyən edilib.

Muxtar Respublikanın yeganə beynəlxalq hava qapısı olan Hava Limanının və mülki infrastrukturun hədəfə alınmasını beynəlxalq hüququn norma və prinsiplərinin pozulması, dövlətimizin ərazi bütövlüyü və suverenliyinə yönəlmiş qəsd və terror aktı kimi qiymətləndiririk.

Komissiya İran tərəfindən həyata keçirilən, özündə hərbi, siyasi və informasiya komponentlərini birləşdirən bu xain hərəkəti həm də hibrid hücum əməliyyatı hesab edir. Eyni zamanda, Azərbaycanın sosial media seqmentində İranın bu fəaliyyətini dəstəkləyən informasiya kampaniyasının aparıldığı və manipulyativ fikirlərin yayıldığı müşahidə olunur.

Bu hücumların vətəndaşlarımız arasında çaşqınlıq və qorxu yaratmaq, müvafiq dövlət qurumlarına olan etimadı sarsıtmaq, Azərbaycanın regional mövqeyinə və beynəlxalq nüfuzuna zərər vurmaq məqsədilə edildiyi şübhə doğurmur.

Azərbaycan tərəfi beynəlxalq hüquq çərçivəsində müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya vətəndaşlarımızı və xaricdə yaşayan soydaşlarımızı dövlətimizin gücünə və rəsmi məlumatlara inanmağa çağırır”.

# Prezident İlham Əliyevin çıxışı dünya mediasında...
















İranın pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumla bağlı məlumatlar dünya mediasında yayımlanıb. Beynəlxalq KİV-lər bu hadisə ilə əlaqədar Prezident İlham Əliyevin sərt reaksiyasını geniş işıqlandırıb. Bir sıra nüfuzlu beynəlxalq informasiya agentlikləri və qəzetlər, xəbər saytları və portallar Azərbaycan rəhbərinin hadisəni "terror aktı" kimi qiymətləndirdiyini və rəsmi Bakının cavab tədbirləri hazırladığını diqqətə çatdırıblar.

"Reuters" agentliyi yazır ki, İran istiqamətindən buraxıldığı bildirilən pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə kənd məktəbinin yaxınlığına düşüb. Agentliyin məlumatına görə, Azərbaycan rəsmiləri hadisə ilə bağlı araşdırma aparır və təhlükəsizlik tədbirləri gücləndirilib. Həmçinin qeyd edilib ki, hücum nəticəsində mülki infrastruktura ziyan dəyib və yaralılar var. Yazıda Prezident İlham Əliyevdən sitatlar yer alıb. "Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin", - deyə Azərbaycan Prezidenti bildirib.

Almaniyanın "Spiegel", "Zeit", "Handelsblatt", "Tagesspiegel", "Bild", "Berliner Zeitung" qəzet və jurnalları, "Tagesschau" və "Welt" telekanalları, eləcə də digər media qurumları bu barədə silsilə xəbərlər yayımlayıb. Xəbərlərdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında aeroportun, məktəb binasının və digər mülki obyektlərin dron hücuma məruz qaldığı vurğulanaraq, bu hücumun Azərbaycan tərəfindən sərt şəkildə pisləndiyi, İran səfirinin Azərbaycan Xarici İşlər Nazirliyinə çağırıldığı bildirilib. Məsələ ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasının keçirildiyi, dövlətimizin başçısının göstərişi ilə Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş hazırlığına gətirildiyi qeyd olunub.

Qardaş Türkiyənin aparıcı televiziya kanalları, informasiya agentlikləri, çap mediası və xəbər saytları, o cümlədən "TRTHaber", "CNNTürk", "Habertürk", "HaberGlobal", "Sabah", "Hürriyet", "Milliyet", "Star" və digər media qurumları Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışını və İran tərəfindən Azərbaycana qarşı törədilmiş terror aktını geniş işıqlandırıb. Qardaş ölkənin mediası Prezident İlham Əliyevin fikirlərindən sitat gətirib. Qeyd olunur ki, Azərbaycan Prezidenti atəşin hədəflərinin mülki obyektlər olduğunu bildirib. Həmçinin vurğulanır ki, Azərbaycan Prezidenti İrandan rəsmi üzr tələb edib və orduya cavab tədbirləri hazırlamaq tapşırığı verib. "Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin", - deyə Türkiyə mediası Prezident İlham Əliyevin sözlərindən sitat gətirib.

Çin mediası da İran tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumu və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında söylədiyi fikirlər barədə xəbərlər yayıb. Çinin milli xəbər agentliyi "Sinxua"nın, Çin Mərkəzi Televiziyasının, Çin Xəbər Xidmətinin internet səhifələrində, digər xəbər portallarında mövzu ilə bağlı informasiyalar yerləşdirilib. Çin mediası yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında İranın dronlar vasitəsilə Azərbaycana qarşı terror aktı törətdiyini deyib. "Əliyev vurğulayıb ki, İran rəsmiləri Azərbaycana izahat verməli və üzr istəməlidir. Prezident Əliyev bildirib ki, Azərbaycan İrana qarşı əməliyyatlarda heç vaxt iştirak etməyib və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Azərbaycanın qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağı var, nə də siyasəti buna imkan verir", - deyə Çin mediası yazır.

ABŞ-nin aparıcı media orqanları da İrana məxsus dronların Naxçıvana hücumu və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında səsləndirdiyi fikirlərə geniş yer verib. CNN yazıb ki, Azərbaycan Prezidenti İlham Əliyev dron hücumlarını terror aktı və çirkin əməl adlandırıb. "Bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir", - deyə CNN Prezident İlham Əliyevin fikirlərinə istinad edərək yazıb.

Qeyd olunub ki, Azərbaycan Prezidentinin göstərişi ilə Silahlı Qüvvələrə təlimat verilib ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin. "Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək", - deyə yazıda Prezident İlham Əliyevin fikirləri qeyd olunub.

"Associated Press" Prezident İlham Əliyevin İranı terrorda və təcavüz aktında günahlandırdığını yazıb. Qeyd olunub ki, Azərbaycan Ordusuna cavab tədbirləri görməyə hazırlaşmaq əmri verilib. "ABC News", "CBS News", "Fox News" və digər aparıcı media orqanları mövzunu günün əsas xəbəri kimi işıqlandırıb.

Fransanın "France24", "Le Monde" və digər media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin hadisə ilə bağlı bəyanatını geniş işıqlandırıblar. Həmin nəşrlərin məlumatına görə, Prezident İlham Əliyev İranın bu addımını "Azərbaycan dövlətinə qarşı terror aktı" adlandırıb və Tehranın bu hadisəyə görə məsuliyyət daşıdığını bildirib. "Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir", - deyə Azərbaycan Prezidentinin fikirlərindən sitat gətirilib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələrinə cavab tədbirləri hazırlamaq və onları həyata keçirmək barədə göstəriş verilib. Prezident İlham Əliyev deyib ki, Azərbaycan Silahlı Qüvvələri bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı həyata keçirməyə hazır olmalıdır.

Bəzi beynəlxalq media qurumları dövlətimizin başçısının digər mühüm sitatlarına yer veriblər. Prezident İlham Əliyev qeyd edib ki, İran bu hücuma görə rəsmi şəkildə üzr istəməli və məsul şəxslər məsuliyyətə cəlb olunmalıdır.

"Channel News Asia", "UPI", "The Canberra Times", "Eurasianet", "Devdiscourse" və digər beynəlxalq media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasında səsləndirdiyi bəyanatını geniş işıqlandırıblar. "Intellinews", "OC Media", "Times of Israel", "Middle East Eye", "News24", "Daily Mail", "The New Region" və digər media platformaları da Prezident İlham Əliyevin çıxışına istinad edərək Azərbaycanın təhlükəsizlik qüvvələrinin yüksək hazırlıq vəziyyətinə gətirildiyini yazıblar. Bəzi nəşrlər, o cümlədən "TimesCA", "Orlando Sentinel", "20 Minutos" və "Independent" hadisənin regionda gərginliyi artırdığını qeyd edərək Azərbaycanın mümkün cavab addımları üzərində işlədiyini bildiriblər.

Rusiyanın "RBC", "Vedomosti", "RIA Novosti", "Interfax", "Komsomolskaya Pravda", "Lenta.ru", "Meduza", "Rossijskaya qazeta" və digər informasiya resursları da Prezident İlham Əliyevin bəyanatına geniş yer ayıraraq onun İranın hücumunu terror aktı kimi qiymətləndirdiyini və Azərbaycan Ordusunun yüksək hazırlıq vəziyyətinə gətirildiyini qeyd ediblər.

Rumıniyanın bir sıra aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin İranın dron hücumları ilə bağlı Təhlükəsizlik Şurasının iclasındakı çıxışını və regionda yaranmış təhlükəsizlik vəziyyətini geniş şəkildə işıqlandırıb. Nəşrlərdə Prezident İlham Əliyevin Azərbaycanın suverenliyinə qarşı yönəlmiş hər hansı təhdidə qəti cavab veriləcəyi barədə mövqeyi xüsusi vurğulanıb. "News.ro" Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə qarşı pilotsuz uçuş aparatları ilə həyata keçirilən hücumu terror aktı kimi qiymətləndirdiyini və bu hadisəyə görə Tehranın məsuliyyət daşıdığını bildirdiyini yazıb. Rumıniyanın analitik nəşrlərindən olan "Newsweek Romania" isə yazır ki, Azərbaycan rəhbərliyi ölkənin təhlükəsizliyini təmin etmək üçün zəruri addımlar atmağa hazır olduğunu bildirib. Rumıniyanın dövlət radiosuna bağlı analitik platforma olan "Rador" xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan dövlətinin təhlükəsizliyinə qarşı yönəlmiş istənilən addıma adekvat cavab veriləcəyini bildirib. "Gandul" xəbər portalı isə yazır ki, Prezident İlham Əliyev İranı Azərbaycan dövlətinə qarşı terror aktı törətməkdə ittiham edib. "Euronews Romania" isə dron hücumu nəticəsində bir neçə nəfərin yaralandığını və pilotsuz aparatların birinin aeroport yaxınlığında partladığını vurğulayıb.

Bir sıra beynəlxalq media qurumları Prezident İlham Əliyevin digər mühüm mesajını da diqqətə çatdırıblar. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan heç vaxt İran əleyhinə hərbi əməliyyatlarda iştirak etməyib və etməyəcək, lakin ölkənin suverenliyinə və təhlükəsizliyinə qarşı hər hansı hücum qətiyyətlə cavablandırılacaq.

Yunanıstan mediası da Prezident İlham Əliyevin fikirlərinə geniş yer ayırıb. Yunanıstanın dövlət televiziya və xəbər platforması "ERT News" yazır ki, Prezident İlham Əliyev Azərbaycanın ərazisinə edilən dron hücumunu İran tərəfindən həyata keçirilmiş terror aktı kimi qiymətləndirib.

Nəşr qeyd edir ki, pilotsuz uçuş aparatlarından biri Azərbaycan ərazisində yerləşən obyektlərdən birinə düşüb və hadisə nəticəsində bir neçə nəfər yaralanıb. Məqalədə Prezident İlham Əliyevin bu hadisənin ciddi təhlükəsizlik insidenti olduğunu bildirdiyi və İranın məsuliyyət daşımalı olduğunu vurğuladığı qeyd edilir.

Eləcə də, "SKAI", "CNN Greece", "Capital.gr", "Liberal.gr" və "Kanaliena" bildirir ki, Prezident İlham Əliyev Azərbaycan Ordusuna mümkün cavab tədbirlərinə hazırlaşmaq barədə göstəriş verib. Nəşr qeyd edir ki, Azərbaycan rəhbərliyi baş verən hadisəni ölkənin təhlükəsizliyinə qarşı ciddi təhdid kimi qiymətləndirir və vəziyyətin inkişafını diqqətlə izləyir.

Dövlətimizin başçısının çıxışı Gürcüstan mediasının da diqqət mərkəzində olub. "interpressnews.ge", "imedinews.ge", "bpn.ge", "1tv.ge", "radiotavisupleba.ge", "qafqazturk.com", "aktual.ge", "interpress.ge", "24news.ge", "rustavi2.ge", "palitranews.ge" informasiya portalları, radio və televiziyaları Prezident İlham Əliyevin İran tərəfindən Naxçıvan Muxtar Respublikasının ərazisinə dron hücumlarını qətiyyətlə pislədiyini bildirir.

Britaniya mediası da Azərbaycan Prezidenti İlham Əliyevin İranın Naxçıvana pilotsuz uçuş aparatları ilə hücumu barədə səsləndirdiyi fikirləri işıqlandırıb. Britaniyanın "The Independent" nəşri yazır ki, Azərbaycan Prezidenti dron hücumlarından sonra ölkənin təhlükəsizliyinə təhdid yaradan qüvvələrə qarşı qətiyyətli mövqe nümayiş etdirəcəyini bəyan edib. Nəşr Prezident İlham Əliyevin "Azərbaycanın gücünü sınayanlar "Dəmir yumruq"la əziləcək" sözlərinə yer verib. "The Independent" qeyd edir ki, dronlardan biri Naxçıvanda hava limanı terminalı yaxınlığında partlayıb. Həmçinin məktəb yaxınlığında baş verən partlayış nəticəsində bir neçə nəfərin xəsarət aldığı bildirilir.

"Daily Mail" isə nəşri yazır ki, İran tərəfindən buraxılan dronlar Azərbaycanın ərazisinə düşərək partlayışlara səbəb olub. Məqalədə qeyd olunur ki, Prezident İlham Əliyev hadisəni "terror aktı" kimi qiymətləndirərək Azərbaycanın cavab tədbirləri görmək hüququnu özündə saxladığını bildirib.

İsveçin "Dagens Nyheter" nəşri də yazır ki, Azərbaycan hakimiyyəti ölkə ərazisinə pilotsuz uçuş aparatları ilə endirilən zərbələrə cavab vermək niyyətində olduğunu bəyan edib. Vurğulanır ki, Bakıda bu hadisə Azərbaycana hücum kimi qiymətləndirilib və İrandan təcili izahat tələb olunub. İranın səfiri Xarici İşlər Nazirliyinə çağırılıb.

Norveçin "Aftenposten" nəşri isə yazır ki, Azərbaycan hakimiyyəti hadisə nəticəsində mülki şəxslərin zərər çəkdiyini, hava limanının binalarından birinin zədələndiyini açıqlayıb. Ölkə baş verənləri hücum kimi qiymətləndirir və "müvafiq cavab tədbirləri" görmək hüququnu özündə saxladığını bəyan edib.

***N.BAYRAMLI***

# Azərbaycanın İrandakı diplomatik korpusları evakuasiya edilir

Azərbaycanın təhlükəsizlik tədbirləri Prezident İlham Əliyevin rəhbərliyi ilə ən yüksək səviyyədə həyata keçirilir. Regional gərginlik fonunda hərbi qüvvələrin hazırlıq səviyyəsi maksimuma çatdırılıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov moldovalı həmkarı Mixay Popşoi ilə keçirilən brifinqdə söyləyib.

Onun sözlərinə görə, əlavə təhlükəsizlik tədbirləri çərçivəsində Tehrandakı səfirliyimizin və Təbrizdəki Baş konsulluğumuzun evakuasiyası barədə göstəriş verilib, çünki Azərbaycan vətəndaşlarının təhlükəsizliyi diqqət mərkəzindədir.

Nazir qeyd edib ki, araşdırmanın nəticələrindən sonra müvafiq qərarlar veriləcək.

Ceyhun Bayramov bildirib ki, diplomatik missiyamıza təxminən 1000 müraciət daxil olub. Bu müraciətlər əsasən BƏƏ, Səudiyyə Ərəbistanı və Küveytə səfər edən vətəndaşlarımızdan olub.



# Azərbaycan qadını - gözəllik və fədakarlıq rəmzi

*Mübariz ABDULLAYEV*

Qadınlar barəsində hansı obrazlı ifadəni, təşbehi işlətsək, zəif təsir bağışlayacaq. Çünki onlar hər cür tərifin, hər cür bənzətmənin fövqündə dayanırlar. Qadın zərif məxluqdur, qar altından çıxan bənövşəyə bənzəyir. Eyni zamanda, bu zəriflikdə qarşısıalınmaz bir güc, tükənməz enerji var. Qarşıdan hər birimizin həyatında xüsusi yer tutan qadınların - analarımızın, bacılarımızın, qız övladlarımızın bayramı gəlir. Dünyada martın 8-i Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Lakin qadınların həyatımızda yeri və rolu o qədər böyükdür ki, onlar ildə yalnız bir dəfə yox, hər gün sevinməyə layiqdirlər!

**Damladır, ümmandır qadın ürəyi**

Azərbaycan qadınları genetik olaraq öz gözəllikləri ilə rəqib tanımırlar və həyatlarının bütün dövrlərində gözəllik rəmzi olaraq qalırlar. Bu da onların daxili keyfiyyətləri ilə bilavasitə bağlıdır. Necə deyərlər, qəlb gözəlliyi üz gözəlliyində təcəssüm edir.

Lakin Azərbaycan qadınları yalnız gözəllik simvolu kimi fərqlənmirlər. Həyatımızın hər hansı bir sahəsini qadınlarsız təsəvvür etmək çətindir. Görkəmli söz ustası Tofiq Bayram "Qadın ürəyi" şeirində Azərbaycan qadınlarının fədakarlığını belə təsvir edib:

*Daşı da əridər, daş da olar o,*
*Əriyib gözlərdə yaş da olar o.*
*Bahar da olar o, qış da olar o,*
*Damladır, ümmandır qadın ürəyi.*

Qloballaşmanın sürətləndiyi indiki dövrdə daha aydın şəkildə dərk olunur ki, hər bir toplumu artan xarici təzyiqlərdən qoruyan, xalqın milli identikliyini təmin edən ilk növbədə onun milli-mənəvi dəyərləridir. Bu Azərbaycan xalqına da aiddir. Biz xoşbəxt xalqıq ki, tarixin sınaqlarından çıxaraq bu günümüzədək gəlib çatan zəngin milli-mənəvi dəyərlər sistemimiz, o cümlədən dilimiz, adət-ənənələrimiz, məişət tərzimiz, mətbəximiz var. Bunlar bizim milli sərvətimizdir. Bəs bu sərvətin qoruyucuları kimdir? Əlbəttə ki, ilk növbədə cəfakeş, fədakar Azərbaycan qadınları. İndi biz dünyada ailə dəyərlərinin aşındığının şahidi oluruq. Böyük-kiçik yeri bilinmir. Yaşlılara dəyər verilmir. Ailələr uşaqlarsız qalırlar. Bu kədərli reallıq fonunda Azərbaycan qadınlarının ailə dəyərlərimizi yaşatmaları üçün hər bir əzabəziyyətə qatlaşmaları sonsuz minnətdarlıq doğurur. Azərbaycan ailəsində qadın ana olmaqla yanaşı, həm də keçmişlə gələcək arasında körpü yaradan, mənəvi bağı təmin edən əvəzolunmaz bir varlıqdır. Bunu yüksək dəyərləndirən Prezident İlham Əliyev "Xalqımız çoxəsrlik tarixinin bütün dövrlərində qadının ülviyyətin təcəssümü saymış və ona hər zaman dərin ehtiram göstərmişdir. Azərbaycan qadınları keçmişimizin taleyüklü, həlledici anlarında vəzifələrinin öhdəsindən daim layiqincə gəlmişlər. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında onların misilsiz xidmətləri vardır", - deyə vurğulayıb.

Lakin Azərbaycan qadınları yalnız ailədəmi fədakardırlar? Əsla! Tarixdən məlumdur ki, Azərbaycan qadınları öz funksiyalarını yalnız nəsil artırmaqla bitmiş saymayıblar. Ər igidlərə arxa, dayaq duran, lazım gəldikdə onlarla birlikdə döyüşlərə qatılan, çiyin-çiyinə vuruşub qəhrəmanlıqlar göstərən qadınlarımız da az olmayıb. Nigarın, Həcərin, Təmrisin, Sara xatunun qəhrəmanlıqları barədə dastanlar yazılıb. Qədim yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud"da Burla xatun, Banu Çiçək, Selcan xatun kimi kişilərlə qoşa yay çəkən, qurşaq tutub güləşən, cıdırda öndə gedən qəhrəman qadınlarımızdan bəhs olunub. Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində qeyd olunur ki, Bərdə hökmdarı Nüşabə böyük fateh makedoniyalı İsgəndərlə görüşüb, öz müdrikliyi və dərin ağlı ilə onu sülhə çağırıb, dünya malı üçün qan tökməkdən çəkindirib. İkinci Dünya müharibəsində Qafqazda, Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın təyyarəçi olan azərbaycanlı Leyla Məmmədbəyova aviasiya mayoru rütbəsinə yüksəlib. O, müharibə illərində yüzlərlə desantçı və 4 min paraşütçü hazırlayaraq cəbhəyə yollayıb. Onun tələbələri arasında 2 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Dürrə Məmmədova-Kosmodemyanskaya II Dünya müharibəsinin iştirakçısı, baş leytenant, "SSRİ tibb xidməti əlaçısı" olub. Digər həmyerlimiz - Sona Nuriyeva da ilk təyyarəçi qadınlardan biri idi. Aliyə Rüstəmbəyova isə partizan hərəkatının iştirakçısı olub.

Ənənələr bu gün də yaşayır. Müasir dövrümüzün qəhrəman qadınlarının sayı da kifayət qədər çoxdur. Birinci və ikinci Qarabağ müharibələri qadınlarımızın şücaətinin sınaq meydanı oldu. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən 2024-cü il dekabrın 25-də Aktau yaxınlığında qəzaya uğrayan "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin bələdçi Əliyeva Hökumə Cəlil qızı Milli Qəhrəman adına layiq görülüb. H.Əliyeva Azərbaycanda Milli Qəhrəman adına layiq görülən üçüncü qadındır. İlk dəfə bu ada layiq görülən qadın Birinci Qarabağ müharibəsi şəhidi Salatın Əsgərovadır (1991). Ondan sonra, 1993-cü ildə həkim, eyni zamanda döyüşçü Gültəkin Əsgərovaya Milli Qəhrəman adı verilib.

**Qadın hüquqlarının etibarlı hamisi**

Dünyada qadın hüquqlarının qorunması mövzusu hər zaman aktual olub. Xatırladaq ki, dünyada qadın hərəkatı ilk növbədə zərif cinsin təmsilçilərinin seçilmək hüququndan qaynaqlanıb. Bəli, nə qədər təəccüblü görünsə də ABŞ, Fransa, İngiltərə kimi Qərb ölkələri qadınlara və kişilərə bərabər hüquqları tanımaq istəmirdilər, zərif cinsin təmsilçiləri ölkələrin parlamentlərinə, idarəetmə orqanlarına buraxılmırdılar.

Azərbaycanda isə qadınların siyasi hüquqlara çıxışlarını təmin etmək üçün feminizm hərəkatına başlamalarına lüzum olmayıb. Azərbaycan cəmiyyətinin qadına yüksək münasibəti 1918-ci ildə qurulan ilk Respublikanın idarəçiliyində özünü büruzə verdi. Belə ki, cəmi 23 ay ömrü olan Azərbaycan Xalq Cümhuriyyəti qadınların seçmək və seçilmək, təhsil və digər hüquqlarını tanıdı.

Bu, bütün Şərq aləmində bir ilkə imza atılması, dünyaya yeni bir nümunə təqdim edilməsi demək idi.

AXC-nin varisi olan müstəqil Azərbaycan dövlət də qadın hüquqlarının etibarlı hamisi qismində çıxış edir. Müstəqil Azərbaycanın qurucusu olan böyük siyasətçi Heydər Əliyev ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırır, onların hərtərəfli fəaliyyətinə geniş meydan verir, lider qadınlar yetişdirirdi.

Son 22 ildə isə Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, dövlət qadın siyasətində də varisliyi təmin edib. Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında qadınların bütün imkanlara çıxışının təmin olunması məqsədilə hüquqi baza getdikcə daha da möhkəmləndirilir. Bu kontekstdə ölkə Prezidentinin təşəbbüsü ilə 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun qəbul edilməsini, elə həmin il dövlət başçısının müvafiq sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılmasını xüsusi qeyd edə bilərik.

Aparılan uğurlu qadın siyasətinin məntiqi nəticəsi olaraq ölkəmizdə zərif cinsin təmsilçilərinin ictimai fəallığı yüksək səviyyəyə çatıb. Statistik məlumatlara əsasən hazırda ölkə əhalisinin ümumi sayının 50,2 faizini qadınlar təşkil edir. Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 81,9 faizi, orta ixtisas təhsil müəssisələrində 81,3 faizi, ali təhsil müəssisələrində 57,4 faizi, həkimlərin isə üçdən ikisi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsilalanların 46,6 faizini, orta ixtisas təhsili müəssisələri tələbələrinin 61,9 faizini, ali təhsil müəssisələri tələbələrinin isə yarısını qızlar təşkil edir.

Qadınların elmin inkişafında da müstəsna rolu var. Elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,2 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,1 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən yeddisi, müxbir üzvlərindən isə doqquzu qadındır.

Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi, ilkin məlumatlara əsasən, 48,3 faizə çatıb. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28 faiz, fərdi sahibkarlar arasında isə 22 faizdir.

**Azərbaycan qadınlarının parlaq obrazı - Mehriban xanım Əliyeva**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Onun hərtərəfli parlaq fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliği sahəsində gördüyü işlər əsl örnəkdir. Ölkənin "yumşaq güc" siyasətinin təcəssümü olan Mehriban xanım Əliyevanın humanitar layihələri ölkəmizə yeni dostlar qazandırır. Onun təşəbbüsü ilə həyata vəsiqə alan Heydər Əliyev Fondunun xeyriyyəçilik tədbirləri bir sıra ölkələri əhatə edir. Deyə bilərik ki, Mehriban xanım Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondu uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib. Belə məqsədyönlü fəaliyyət hər şeydən əvvəl dünyada Azərbaycanın təqdimatı və təbliğidir. Ölkənin Birinci vitse-prezidentinin rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərə malik olduğunun bariz nümunəsidir.

Müstəqil Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın idarəçilik fəlsəfəsi də tamam fərqlidir. Mehriban Əliyeva Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunub. Açıq deyək, başlanğıcda ölkədə yeni təsisata inam az idi. İnsanlar o qənaətdə idilər ki, bu idarəçilik institutunun özünü təsdiqləməsi üçün bir neçə il tələb olunacaq. Ancaq Mehriban Əliyeva ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin - "Eurovision" mahnı müsabiqəsinin, Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkilində qazandığı təcrübəyə və daxilindəki istəyə, enerjiyə əsaslanmaqla Birinci vitse-prezidentlik institutunu qısa zaman kəsiyində işlək bir mexanizmə çevirməyi bacardı.

Bu günlərdə isə dövlət başçısının imzaladığı müvafiq Fərmana əsasən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılıb və Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə qurumun tərkibi təsdiqlənib. Rəqəmsal inkişaf Azərbaycanın gələcəyidir. Mehriban xanım Əliyevanın Rəqəmsal İnkişaf Şurasına rəhbərlik etməsi isə o anlama gəlir ki, ölkəmizin gələcəyinin qurulmasında da qadınlar yüksək fəallıq göstərəcəklər.




# Sözün və sazın zirvəsi...



## Dədə Ələsgər aşıq sənətimizin zəngin irsidir!

*Yeganə BAYRAMOVA*

Aşıq sənəti xalqımızın ruhudur, sözün və musiqinin sintezi, xalqın qanı ilə yoğrulmuş irsimizdir. Bu irsin ən parlaq adı Aşıq Ələsgərdir. O, yalnız söz ustası deyil, həm də tariximizin canlı aynasıdır deyə bilərik.

Onun yaradıcılığının poetik yükü və miqyası Azərbaycan ədəbi tənqidinin formalaşmağa başladığı ilk vaxtlardan diqqəti çəkib. Doğulub yaşadığı Göyçə mahalında, Qarabağ, Zəngəzur, Qarakilsədə, həmçinin İran və Dağıstana qədər uzanan geniş arealda məşhurlaşmışdı. Aşıq və el şairləri arasında unikal şeirləri ilə seçilirdi. Söhbət aşıq sənətimizin ən populyar nümayəndələrindən olan Aşıq Ələsgərdən gedir.

Bu gün Dədə Ələsgər kimi də xatırlanan aşığın vəfatından 100 il ötür. A.Ələsgər kiçik yaşlarından xüsusi təhsil ala bilməmişdi. Saz sənətinin bir çox sirrini kənd camaatının içində, el sənətkarlarının, ağsaqqalların yanında öyrənmişdi. İlk şeirlərini də yeniyetməlik çağlarında aşıqların təsiri ilə söyləmişdi. Atası Ələsgərin saza, şeirə bağlılığını gördükdən sonra onu Aşıq Alının yanına aparır. Aşıq Alı ona aşıqlıq sənətinin sirlərini, el şənlikləri, toy məclislərini müstəqil idarə etməyi öyrədir. Beləliklə, Ələsgər aşıq kimi çox tez tanınır. Bir gün Göyçənin Qızılbulaq kəndində, Böyük Ağanın evində qurulan məclisdə Aşıq Alı və gənc şagirdi deyişirlər. Sonralar bu məclis barədə dastanlar deyildi. Kimi Aşıq Alının öz şagirdini daha da şöhrətləndirmək, el içində ucaltmaq qəsdilə ona məğlub olduğunu, bəziləri isə gənc aşığın söz döyüşündə ustadını yendiyini söylədi. Qaydaya görə, deyişmədə məğlub olan öz sazını qalibə təslim etməlidir və Aşıq Alı da sazını Aşıq Ələsgərə uzatdı.

Gənc aşıq böyük bir sınağa çəkilmişdi. Aşıq Alı kimi ustada üstün gəlmək, sazını əlindən almaq dastanlara sığmayan hünər olardı. Ancaq o gün Aşıq Ələsgər yalnız aşıqlıq sənətində deyil, mərifət elmində də kamil olduğunu göstərdi. Ustadının qarşısında baş əyib ehtiramla dedi:

*"Bir şəyir ki, ustadına kəm baxa,*
*Onun gözlərinə qan damar, damar".*

Aşıq Ələsgər yaradıcılığında Göyçənin toponimləri, tarixi qaynaqları və adət-ənənələri çox sərrast həkk olunub. Aşıq özünü yaradıcılığında tez-tez təqdim edir, bu isə onun Vətəni - doğulub boya-başa çatdığı Göyçəsinə məhəbbətindən, kökünə olan hörmət-izzətindən irəli gəlir:

*"İstəsən ki, Ələsgəri görəsən,*
*Göyçə mahalıdı mahalım mənim!"*

Aşıq Ələsgər Azərbaycan xalqı üçün bir folklor dünyasıdır. O, eyni zamanda, əməksevərliyi ilə nümunə olub. Lap qoca yaşlarında belə əkin əkər, yer şumlayar, taxıl və ot biçininə gedər, xırman işləri görərmiş. Onun əlindən dülgərlik, dəyirman sazlamaq, ev tikmək işləri də gəlirmiş. Ömrünün çoxunu xalqın içərisində, toy, şadlıq məclislərində keçirən Aşıq Ələsgər təkcə Azərbaycanda yox, Türkiyədə, İranda və Dağıstanda da ustad bir sənətkar kimi tanınıb.

1915-ci ildə aşığın həyatında kədərli bir hadisə baş verir: qardaşı oğlu, həm də kürəkəni cavan yaşında vəfat edir. Bir il sonra oğlu Bəşir kəndin kovxasını güllə ilə vurub qaçır. Bundan ötrü aşığın qardaşı Xəlili və ortancıl oğlu Əbdüləzizi tuturlar. Bu hadisələr qoca aşığın qəlbində dərin bir qüssə, qəm-kədər əmələ gətirir. Onun sənətkar ürəyi elə tutulur ki, bir daha əlinə saz alıb çala bilmir. O, tez-tez keçmiş günləri xatırlayır, dünya, həyat barədə düşünüb kədərlənirdi. Aşıq 1926-cı il martın 7-də 104 yaşında doğulduğu kənddə vəfat edir və Ağkilsə qəbiristanlığında dəfn olunub.

Xatırladaq ki, Prezident İlham Əliyev 2021-ci il fevralın 18-də "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.

A.Ələsgər obrazında xalqın folkloru, etnoqrafiyası, məişəti, sazı, sözü, inamı, inancı, tarixi keçmişi, yaradıcı potensialı cəmlənib. Haqqında nə qədər yazılmasına, araşdırmalar aparılmasına, tədqiqatlar ortaya qoyulmasına baxmayaraq, bundan sonrakı mərhələdə də A.Ələsgər təkrar-təkrar, yeni baxışlar, yeni istiqamətlər işığında öyrənilməli, yaradıcılığı və şəxsiyyəti haqqında araşdırmalar davam etdirilməlidir.



# Sərhədlərin bağlı saxlanılması...

## Təhlükəsizlik və sığortalanma: Azərbaycan nümunəsi

### Regional konfrantasiyaların mərkəzində real sabitlik adası...

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin təhlükəsizliyi və milli maraqlarının qorunması hər bir ölkənin əsas prioritetlərindən biri hesab olunur. Qlobal miqyasda baş verən siyasi, iqtisadi və təhlükəsizliklə bağlı proseslər dövlətləri öz sərhədlərinə və sərhəd siyasətinə daha həssas yanaşmağa vadar edir. Bu baxımdan sərhədlərin qorunması və zəruri hallarda onların müəyyən müddət bağlı saxlanılması dövlət təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm vasitələrdən biri kimi çıxış edir.

Ümumiyyətlə, sərhəd yalnız coğrafi mənada izah edilməməlidir - sərhədin təhlükəsizliyi eyni zamanda ölkənin daxili sabitliyinin qorunması, qanunsuz miqrasiyanın qarşısının alınması, transmilli cinayətkarlıqla mübarizə və epidemioloji təhlükələrin minimuma endirilməsi kimi vacib məsələləri də əhatə edə bilər. Təsadüfi deyildi ki, məhz qlobal pandemiyanın ardından bağlanan Azərbaycan sərhədi ötən dövrdə özünün möhkəm qorunma imkanları ilə diqqət mərkəzinə düşüb.

Dövlətlər zaman-zaman dəyişən beynəlxalq şəraitə uyğun olaraq sərhəd rejimində müxtəlif tədbirlər həyata keçirirlər. Bu tədbirlərdən biri də sərhədlərin müəyyən müddət bağlı saxlanılmasıdır...

**Müasir təhlükəsizlik çağırışları...**

Vurğulandığı kimi, Azərbaycanda həyata keçirilən milli təhlükəsizlik siyasəti qlobal gündəmin konturlarına uyğun şəkildə tənzimlənir. Bu gün müasir təhlükəsizlik çağırışları olduqca geniş spekti əhatə etməkdədir:

- Sərhəd regional situasiyanın dəyərləndirilməsində əsas alət kimi ön plana çıxır;
- Geostrateji vəziyyətə uyğun olaraq qarşılıqlı mübadilə şərtləri müəyyənləşməlidir;
- Yeni nizamın qurulmasının təlatümsüz olmayacağı baxımından, bu reallığın mərkəzində yer almaq məsuliyyəti dərk edilməlidir.

Sərhəd siyasəti məhz dövlət təhlükəsizliyinin gücləndirilməsi və milli maraqların qorunması prinsiplərinə əsaslanır. Regionda mövcud olan geosiyasi vəziyyət, qlobal təhlükəsizlik çağırışları və müxtəlif risk faktorları nəzərə alındıqda sərhədlərin bağlı saxlanılması qərarı dövlətin strateji maraqları ilə birbaşa bağlı olur. Bu addım həm ölkə daxilində sabitliyin qorunmasına, həm də mümkün təhlükələrin qarşısının əvvəlcədən alınmasına xidmət edir. Beləliklə, sərhədlərin bağlı saxlanılması yalnız inzibati qərar kimi deyil, eyni zamanda dövlət təhlükəsizliyini və milli maraqları qorumağa yönəlmiş kompleks siyasətin tərkib hissəsi kimi ortaya çıxır.

**Zamana qarşı "döyüş"...**

Məsələni Azərbaycanın timsalında ən uğurlu şəkildə izah etmək olar. Bu gün Bakı real olaraq yeni gündəmin aparıcı aktorudur. Yeni iqtisadi - ticari şərtlər Bakının həm geocoğrafi, həm də geostrateji baxışları və diqtəsi əsasında formalaşır. Qərb ilə Şərqi qovuşduran Odlar Yurdu "zamana qarşı döyüşür". Cəmisi 6 ilə qət edilən yolun xarakteristikasına, mahiyyətinə nəzər salsaq, dünya tarixində belə bir analoq tapmaq mümkün deyil:

- Bakı yeni logistik struktur yaradır;
- Bakı enerji mübadiləsində yeni gündəm formalaşdırır;
- Bakı gələcəyin enerji şaxələndirməsini həyata keçirir;
- Bakı bölgənin ən azı gələcək 30-40 ili üçün yeni təhlükəsizlik arxitekturasının sxemini və strateji yol xəritəsini təqdim edir.

Bu, spektrlər ayrı-ayrılıqda fərqli xətlər üzrə izah edilə bilər - amma məsələyə kompleks yanaşdıqda, mənzərə olduqca rəngarəngdir: Azərbaycan yeni dünya reallığı uğrunda mübarizə aparır. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, bu, böyük əmək, zəhmət və diplomatik fəaliyyət nəticəsində əldə olunan bir uğurdur.

**Yeni nizamın mərkəzində...**

Hazırda dünyanın ən əsas sütun seqmenti sayılan ticari yol imkanları birbaşa Azərbaycanın sərhədlərində qovuşur. Şərq ilə Qərb qədər Şimal ilə Cənub qovşağı da vacib bir ünsür kimi götürülməlidir. Təhlükəsiz ticarət üçün təhlükəsiz region amili mütləq şərtdir. Bəs bu gün, ətrafımızda nələrin şahidi oluruq. Bizi əhatə edən coğrafi şərtlər konfrantasiyalar əsasında müəyyən olunur. Başqa sözlə, Cənubi Qafqazda sabitlik yaradan Azərbaycan yaxın regionlarımızda baş verənləri açıq gözlə müşahidə edir. Düzdür, Azərbaycan qlobal təhlükəsizlik masasında təmsil olunur, lokal kataklizmlərin aradan qaldırılması istiqamətində müəyyən vasitəçilik edir, hətta yeni enerji siyasətində olduqca vacib bir məsuliyyəti bölüşür. Məsələn, Qlobal Cənubun qaz təminatında iştirakla bağlı verilən qərar (Suriyaya qaz ixracı) həm də təhlükəsizlik perimetrinin əsas amillərindən biridir. Bu baxımdan, Bakı bütövlükdə Yaxın və Orta Şərq, hətta Mərkəzi və Şərqi Avropa strateji məkanları üçün açar dövlət rolunu oynayır - Azərbaycan bu gün əsas diqqət mərkəzində olan bir dövlətdir. Bu isə təhlükəsizliyin vacibliyini ilkin şərt kimi önə çıxarır.

**Təhlükəsizlik təmin olunmalıdır...**

Amma nəzərə almalıyıq ki, bu gün dünyada inkişafa dəstəklə yanaşı, həm də inkişafa mane olmaq cəhdləri də böyükdür. Bunun üçün bəzi ənənəvi və yeni alətlər mövcuddur. Bunların ən geniş yayılmışı siyasi sabitliyin bu və ya digər şəkildə pozulmasına yönəlik distabilizasiyanın formalaşdırılmasıdır. Məsələn, terrora əl atılması kimi. Bəlli olduğu kimi, terror genişmənalı anlayışdır. Burada söhbət fərdi və ya kütləvi insan qəsdi ilə yanaşı, həm də yeni nizama, onun şərtlərinə və ya strateji subyektlərinə qəsddən gedə bilər. Azərbaycan bu təhlükənin qarşısını almaq üçün diqqətli olmaq məcburiyyətindədir. Çünki məsuliyyət bizim üzərimizdədir - öhdəmizə götürdüyümüz bu genişiqyaslı fəaliyyətin həm də təhlükəsizliyini təmin etməliyik.

**Yaratdığımız sığorta aləti...**

Sərhədlərin bağlı saxlanılmasının mütləq təhlükəsizlik amili kimi ön plana çıxmasının başqa bir misalı kütləvi qeyri-müəyyən axınların qarşısının alınmasıdır. Yuxarıda da qeyd edildiyi kimi, bu gün ətrafımızda cərəyan edən hadisələr bütün cəhətlər üzrə hər an baş verə biləcək təhlükə ehtimalını özündə əks etdirir. Xüsusilə, son illərdə intensiv hərbi eskalasiyaların yaşanması Bakının verdiyi qərarın düzgünlüyünü bütün parametrlər üzrə təsdiqləyir.

Bölgədə ciddi proseslər baş verməkdədir. Azərbaycan hərbi qarşıdurmaların danışıqlar yolu ilə həllinin tərəfdarıdır. Amma biz təhlükədən sığortalanmamışıq - həm də bu mənada özümüz sığorta alətlərini yaradırıq. Bunun da ilk sırasında məhz sərhədlərin güvənli, etibarlı, inamlı şəkildə qorunmasıdır.

**P.İSMAYILOV**

# İnvestisiyalarla bağlı yeni qayda

## Strateji əhəmiyyətə malik investisiyalar dövlət tərəfindən alınacaq

Prezident İlham Əliyev "İnvestisiya fəaliyyəti haqqında" Qanuna müvafiq dəyişiklikləri təsdiqləyib. Dəyişikliyə əsasən, investisiyanın dövlət tərəfindən alınmasının yeni əsasları müəyyənləşib. Belə ki, strateji əhəmiyyətə malik investisiyalara münasibətdə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya Azərbaycanın milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə investisiyaların dövlət tərəfindən alınması nəzərdə tutulur. İnvestisiyaların birbaşa dövlət tərəfindən alınmasının əvəzində investorlara kompensasiya ödənilməsi təmin olunacaq. Kompensasiya investisiya müqaviləsində müəyyən edilmiş qaydada, ədalətli bazar dəyərinə uyğun müəyyən olunacaq və gecikdirilmədən xarici investisiya üçün sərbəst dönərli valyutada, yerli investisiya üçün isə investisiyanın qoyulduğu valyutada ödəniləcək. Burada başlıca məqsəd strateji əhəmiyyətə malik olan investisiyalarla bağlı dövlətin milli maraqlarının qorunması, xalqının mənafelərinə zərər vuran halların qarşısının alınmasıdır. Beləliklə, strateji əhəmiyyət daşıyan sərmayə resursları ilə əlaqədar dövlətin xüsusi nəzarəti və imtiyazlarına əsaslanan hüquqi baza formalaşacaq.

### Dövlətin milli iqtisadi təhlükəsizliyi naminə

Məlumdur ki, investisiyalar investordan dövlət tərəfindən 2 əsasla - dövlət ehtiyacları üçün və rekviziya məqsədilə (təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanlarının qərarı ilə cəmiyyətin mənafeləri üçün) alınır. Hər iki halda investisiyanın dəyəri kompensasiya ödənişinin edilməsi yolu ilə investora ödənilir. Bu isə bir sıra strateji malların investisiyalaşdırılması zamanı milli maraqlara və iqtisadi təhlükəsizliyə qarşı bəzi hallar yaradır. İqtisadi təhlükəsizlik dövlətin milli təhlükəsizliyinin əsas atributlarından biridir.

Son illərdə Azərbaycan iqtisadiyyatının struktur və məzmunca xeyli dəyişməsi, meydana çıxan yeni çağırışlar fonunda yeni tənzimləmələrin aktuallaşması iqtisadiyyatın strukturunun, biznes mühitinin təkmilləşməsini zəruri etdiyi kimi, investisiya cəlbediciliyinin artırılması baxımından da digər addımların atılmasını labüdləşdirir. Bu baxımdan Azərbaycanda iqtisadi təhlükəsizlik sahəsində mühüm tədbirlərin görülməsi üçün hüquqi əsasların yaradılmasına ehtiyac yaranmışdı və yeni dəyişiklik bu kimi halların qarşısı almış olacaq.

Bu dəyişikliklər Azərbaycanda xarici investisiyaların daha etibarlı qorunması üçün də mühüm hüquqi əsaslar yaradacaq. Eyni zamanda ölkəmizdə güclü ictimai-siyasi sabitlik fonunda sərmayələrin təşviqini artıracaq.

### Sərmayələrin təşviqi və investorların hüquqlarının qorunması

Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşlarının artmasında ən mühüm amillərdən biri ölkədə təmin edilmiş sağlam və münbit investisiya mühitidir. Bu istiqamətdə respublikamızda həyata keçirilən hüquqi və institisional islahatlar mühüm rol oynamaqdadır. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamına əsasən, ölkə iqtisadiyyatına investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bu ssenariyə uyğun olaraq biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlər görülüb ki, bu da xarici sahibkarların fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olub. İnvestorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" qanunların qəbul edilməsi, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyini artırıb.

Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalaması da investisiya qoyuluşunu təşviq etməkdədir. Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb ki, həmin dövlətlərin investorlarının ölkəmizin iqtisadiyyatında potensial sərmayədar kimi xüsusi payı artmağa başlayıb.

Beləliklə, qeyd edilən təşviqedici tədbirlər, dövlətin xarici investorlara olan dəstəyi biznes sektorunun və beynəlxalq maliyyə qurumlarının Azərbaycana olan marağını yüksəldib. Ümumilikdə, 2003-2025-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi təxminən 340 milyard dolları təşkil edib ki, onun 170 milyard dolları xarici investisiyalardır.




### Azərbaycanın investisiya reytinqi "BBB" səviyyəsinə yüksəlib

Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbediciliyi yüksəlib. "Standart & Poor's" və "Moods" reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq "BB+" səviyyəsinə qaldırıb. Eyni zamanda "Fitch Ratings" agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "pozitiv" proqnozu ilə "BBB" səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı 2024-cü ilə dair hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik "Top-7" qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir.

Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə 2024-cü ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub.

**E.CƏFƏRLİ**



# Yaxın Şərqdə 8-ci gün...

Yaxın Şərqdə davam edən müharibə 8-ci günə qədəm qoyub. Qeyd edək ki, ötən gün İrandan İsrailə yeni raket hücumu dalğası həyata keçirilib. Bu barədə İsrail Müdafiə Qüvvələri (IDF) məlumat yayıb. Məlumata görə, 21-ci dalğa çərçivəsində raketlər və pilotsuz uçuş aparatlarının kombinə edilmiş istifadəsi həyata keçirilib. Bildirilib ki, hücum zamanı "Xeybər" raketləri Təl-Əvivin mərkəzindəki hədəflərə buraxılıb.

**300-dən çox raket qurğusu...**

Fevralın 28-dən bəri İsrail Hərbi Hava Qüvvələri İranda 300-dən çox raket qurğusunu sıradan çıxarıb. IDF Tehrana əlavə zərbələr dalğasını həyata keçirib. Qeyd olunub ki, Tehranın müxtəlif bölgələrində İran hökumət infrastrukturuna qarşı genişmiqyaslı zərbələr dalğası həyata keçirilib. İsrail Hərbi Hava Qüvvələrinə məxsus F-35I təyyarəsi İranın qərbindəki Kermanşah bölgəsində ballistik raket qurğusunu məhv edib. IDF zərbənin görüntülərini "X" səhifəsində yayımlayıb. "İsrail Hərbi Hava Qüvvələri İsrail Dövlətinə təhdid yaradan raket atış sahələrini vurmağa davam edir", - bildirilib.

**219 nəfər xəstəxanaya yerləşdirilib**

İsraildə ötən sutka ərzində İranın raket və dron zərbələri nəticəsində xəsarət alan 219 nəfər xəstəxanalara yerləşdirilib. Bu barədə İsrail Səhiyyə Nazirliyi məlumat yayıb. Ümumilikdə, hərbi əməliyyatlar başlayandan bəri 1274 nəfər xəstəxanaya yerləşdirilib, 96 nəfərin müalicəsi davam edir.

**Küveytə zərbə endirilib**

İranın İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) Küveyt ərazisində ABŞ hərbçilərinin cəmləşdiyi əraziyə pilotsuz uçuş aparatları ilə zərbə endirdiyini yayıb. SEPAH-ın qərargahının bəyanatına istinadən "Al Jazeera" telekanalı bildirib ki, hücum onlarla döyüş dronunun iştirakı ilə həyata keçirilib və zərbələr ABŞ əsgərlərinin toplandığı əraziyə endirilib. ABŞ hərbçiləri arasında mümkün itkilərlə bağlı məlumat verilməyib. Eyni zamanda SEPAH ABŞ-ın Hind okeanında, İran sahillərindən təxminən 650 kilometr məsafədə yerləşən esminesini də hədəfə aldığını iddia edib.

**Konsulluqda yanğın**

Dubayda ABŞ-ın konsulluq binasında yanğın baş verib. Bu barədə CNN məlumat yayıb. Telekanalın xəbərinə görə, binaya İran istehsalı olduğu bildirilən pilotsuz uçuş aparatı ilə zərbə endirilib.

Təl-Əvivin bəzi rayonlarında da partlayışlar qeydə alınıb. Bu barədə "Reuters" agentliyi məlumat yayıb. İtki və dağıntılarla bağlı hələlik məlumat açıqlanmayıb.

## Tehran mülki obyektləri hədəfə alır

**Gizli nüvə obyekti məhv edilib**

İsrailin Hərbi Hava Qüvvələri Tehranın kənarında yerləşən gizli nüvə obyektini məhv edib. Bu barədə "The Times of Israel" İsrail Müdafiə Qüvvələrinə (IDF) istinadən məlumat yayıb. Məlumata görə qismən yeraltı olan və "Minzadehei" adlanan obyektdə bir qrup nüvə alimi "nüvə silahı üçün tələb olunan imkanların gizli şəkildə inkişafı üzərində çalışırdı".

Qeyd olunur ki, 2025-ci ilin iyununda İsrail və İran arasında baş vermiş 12 günlük müharibə zamanı nüvə obyektlərinə zərbələr endirilsə də, Tehran hərbi nüvə fəaliyyətini dayandırmayıb və infrastrukturu hava hücumlarından qorunan yeraltı məkana köçürərək işləri davam etdirib.

"İran nüvə alimlərinin fəaliyyəti izlənilib və onların yeni fəaliyyət yeri müəyyən edildikdən sonra "gizli kompleksə dəqiq zərbə" endirilib", - İsrail Müdafiə Qüvvələrindən bildirilib.

**Körfəz ölkələri atəş altında**

Bundan başqa İranın ABŞ-ın Yaxın Şərqdəki hərbi bazalarına qarşı yeni hücum dalğası baş tutub. Məlumata görə, ABŞ-ın Bəhreyn, Küveyt, BƏƏ (Əbu-Dabi, Dubay) və Qətərdəki (Doha) bazaları hücuma məruz qalıb.

ABŞ və İsrail tərəfindən İranda vurulan hədəflərin sayı 2 mini keçib. Bu barədə "The New York Times" qəzeti məlumat yayıb. Daha əvvəl ABŞ Mərkəzi Komandanlığı mindən çox hədəfin vurulduğunu bildirmişdi. Zərbələrə İranın komandanlıq və idarəetmə mərkəzləri, SEPAH-ın qərargahı, ballistik raket mərkəzləri və hərbi rabitə obyektləri daxil idi.

**"Mühüm nailiyyətlər əldə etdik"**

İsrail ordusunun Baş qərargah rəisi Eyal Zamir qarşıda hələ "bir neçə günlük döyüşlərin" olduğunu vurğulayıb. O, bu barədə Təl-Əvivdə İsrail Müdafiə Qüvvələrinin qərargahında keçirilən müşavirədən sonra yayımlanan videomüraciətdə danışıb: "Biz güclü sürprizlə başladıq, əməliyyatın gedişinə və nəticələrinə təsir edən çox mühüm nailiyyətlər əldə etdik. Artıq deyə bilərik ki, ilkin mərhələdə qazandığımız nəticələr yekun vəziyyətə təsir göstərəcək."

Baş Qərargah rəisi əlavə edib ki, əsas məqsədlərdən biri İsrailə yönəlmiş təhdidlərin azaldılmasıdır: "Hazırda səbr tələb olunur. Biz müttəfiqimizlə sıx əməkdaşlıq edirik, ABŞ ordusu ilə koordinasiya heç vaxt olmadığı qədər güclüdür". O, həmçinin İsrailin digər istiqamətlərdəki vəziyyəti də izlədiyini, ölkəyə qarşı hər hansı təhdidə "qətiyyətlə cavab veriləcəyini" vurğulayıb.

**Tramp "4 həftə" deyir...**

ABŞ Prezidenti Donald Tramp isə hesab edir ki, İrana qarşı həyata keçirilən əməliyyat təxminən 4 həftə və ya daha az müddətdə başa çata bilər. O, bu barədə Britaniyanın "Daily Mail" qəzetinə müsahibəsində bildirib. "Hesablamışıq ki, bu, təxminən 4 həftə çəkəcək. Bu, həmişə təxminən 4 həftəlik proses kimi nəzərdə tutulub. Bütün mürəkkəbliyə baxmayaraq, əməliyyat dörd həftə və ya daha az davam edəcək", - deyə Tramp qeyd edib.

Prezident Ağ Evdə çıxışı zamanı isə İsrail ilə birgə keçirilən əməliyyat zamanı İranın raket potensialının böyük hissəsinin məhv edildiyini bəyan edib. "Raketlər artıq yoxdur. Buraxılış qurğuları artıq yoxdur. Müvafiq olaraq onların təxminən 10 faiz və 64 faizi məhv edilib", - deyə Tramp bildirib və əlavə edib ki, indiyədək İran Hərbi Dəniz Qüvvələrinə məxsus 24 gəmi sıradan çıxarılıb.

Onun sözlərinə görə, Vaşinqton döyüş əməliyyatlarını davam etdirməyə Tehrandan daha çox meyillidir: "Onlar deyirlər: "Biz necə saziş bağlaya bilərik?" Mən isə dedim: "Siz bir az gecikmisiniz".

ABŞ Prezidenti həmçinin qeyd edib ki, İrana qarşı əməliyyat uzunmüddətli perspektivdə Yaxın Şərqdə sabitliyin əhəmiyyətli dərəcədə möhkəmlənməsinə gətirib çıxaracaq: "Gördüyümüz tədbirlər uzunmüddətli perspektivdə Yaxın Şərq regionunun sabitliyini, həmçinin neft qiymətlərini, fond bazarını və qalan hər şeyi dramatik şəkildə gücləndirəcək", - deyə Donald Tramp vurğulayıb.

Bundan əvvəl Ağ Ev rəhbəri "ABC News" telekanalına müsahibəsində İranın bərpası üçün təxminən 10 il vaxt lazım olacağını bildirmişdi.

**Yaşayış məntəqələri, hotellər hədəfə alınır**

Bəhreynin Hava Hücumundan Müdafiə sistemləri ABŞ və İsrailin İrana qarşı əməliyyatının başlanmasından bu yana 78 İran raketini və 143 pilotsuz uçuş aparatını məhv edib. Bu barədə Bəhreynin Müdafiə Qüvvələrinin Baş Komandanlığının məlumatında deyilir. "Bəhreyn müdafiə qüvvələrinin HHM sistemləri İranın krallığa qarşı davam edən təcavüzü müddətində 78 raket və 143 pilotsuz uçuş aparatını məhv edib", - məlumatda qeyd olunub.

Bununla yanaşı, Bəhreynin DİN-i son sutkada Əl-Maamir sənaye zonasındakı "Bapco" şirkətinə məxsus neft emalı zavoduna, həmçinin ölkənin paytaxtı Manamada 2 yaşayış binasına və 1 hotelə zərbələr endirildiyini bildirib.

**"Hizbullah"a da zərbə endirilir**

Dünən İsrail Hərbi Hava Qüvvələri (HHQ) Beyrutun cənub ətrafına "Hizbullah"ın infrastrukturuna yeni hava zərbələri dalğasını reallaşdırıb. Bu barədə İsrail Müdafiə Ordusunun "X" sosial şəbəkəsindəki hesabında paylaşım edilib. "İsrail Müdafiə Ordusu Beyrutda Dahiyə rayonunda radikal "Hizbullah" təşkilatının infrastrukturuna zərbələr endirməyə başlayıb, təfərrüatlar sonra açıqlanacaq", - bəyanatda bildirilib.

**İranın gəmisi batdı...**

Amerika qoşunları İranın pilotsuz uçuş aparatlarını daşıyan gəmisinə zərbə endirib. Bu barədə ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı (CENTCOM) məlumat yayıb. CENTCOM tərəfindən paylaşılan videoda sursatın İranın nəhəng gəmisinə dəyməsi və onun üzərindən qatı tüstünün yüksəlməsi görünür. Komandanlığın məlumatına görə, ölçülərinə görə İkinci Dünya müharibəsi dövrünün aviadaşıyıcılarını xatırladan PUA daşıyan gəmi "hazırda yanır". Məlumatda zərbənin məhz harada endirildiyi dəqiqləşdirilməyib.

**Səfirlik boşaldılır...**

Birləşmiş Ştatlar administrasiyası Küveytdəki səfirliyin əməkdaşlarının təxliyəsinə başlayıb. Bu barədə mənbələrə istinadən "CBS News" telekanalı məlumat yayıb. Diplomatlara məxfi sənədləri məhv etmək, həmçinin analoji məlumatları serverlərdən silmək əmri verilib. Telekanalın məlumatına görə, diplomatik missiya artıq bir neçə dəfə hücuma məruz qalıb. Martın 5-də səfirliyin fəaliyyəti dayandırılıb.

**Türkiyəyə növbəti raket atılıb...**

İrandan Türkiyə ərazisinə ikinci raket atılıb. Raket ölkənin hava məkanında məhv edilərək Adıyamanda Atatürk su anbarına düşüb. Raketin qalıqları xüsusi qruplar tərəfindən axtarılıb. Qruplar suya düşmüş raketə aid bir hissəni tapıblar. Raketə aid hissə araşdırılması üçün Jandarm Komandanlığına aparılıb. Su anbarında qalan raket parçalarının tapılması üçün işlər görülüb. Eyni zamanda, qruplar bölgədəki kənd təsərrüfatı sahələri ərazisində də axtarışlar həyata keçirirlər.

**Təl-Əviv bombalandı...**

İsraildə paytaxt Təl-Əviv istiqamətində raket hücumu ilə bağlı xəbərlər yayılıb. İsrailə yaxın sosial media səhifələrinin yaydığı məlumata görə, İran tərəfindən Təl-Əvivə raket zərbəsi endirilib. Zərbə nəticəsində Ben-Qurion beynəlxalq hava limanı yaxınlığında tüstü qalxdığı müşahidə olunub. Hadisə yerindən yayılan görüntülərdə ərazi üzərində tüstü buludunun yüksəldiyi bildirilir.

İsrail mənbələri hücum zamanı İranın klaster tipli raketdən istifadə etdiyini yazır.

Eyni zamanda, Təl-Əviv şəhərində yaşayış binasına raket zərbəsi endirildiyi barədə məlumat yayılıb. Belə ki, İran tərəfindən atılan raketlərdən biri Təl-Əvivdə yaşayış binasına düşüb. Hadisə nəticəsində ərazidə dağıntıların yarandığı bildirilir. Hücumdan sonra şəhərin bəzi hissələrində hava həyəcanı siqnalları verildiyi və təhlükəsizlik tədbirlərinin gücləndirildiyi qeyd olunub.

**İran interneti məhdudlaşdırdı...**

İran hakimiyyəti ölkə daxilində informasiya axınını tamamilə kəsmək üçün internet məhdudiyyətlərini rekord həddə çatdırıb. Qlobal internet monitorinqi ilə məşğul olan "NetBlocks" qrupunun son hesabatına görə, İranda internetin kəsilməsi artıq 144 saatı (6 günü) ötüb. Hazırda ölkə üzrə ümumi internet bağlantısı adi vaxtdakı səviyyənin cəmi 1 faizni təşkil edir ki, bu da praktiki olaraq İranın dünya ilə rəqəmsal əlaqəsinin tam kəsilməsi deməkdir. "NetBlocks" bu vəziyyəti "Oruellian mühiti" (totalitar nəzarət) kimi xarakterizə edib. Belə ki, İranın telekommunikasiya şirkətləri qlobal şəbəkəyə qoşulmağa və ya bloklamalardan yan keçməyə çalışan istifadəçiləri açıq şəkildə məhkəmə iddiaları və ağır cəzalarla hədələyirlər. Ekspertlər bildirirlər ki, rəsmi Tehran bu addımla həm ölkədəki daxili etirazların görüntülərinin xaricə çıxmasının qarşısını almağa, həm də ABŞ-İsrail zərbələrinin fəsadları barədə məlumatları gizlətməyə çalışır. Məhdudiyyətlər təkcə fərdi istifadəçilərə deyil, həm də ölkənin onsuz da ağır vəziyyətdə olan bank və ticarət sektoruna böyük zərbə vurur.

**Naxçıvana endirilən zərbə təsadüfi ola bilməz...**

Qeyd edək ki, Naxçıvana endirilən zərbələrdən sonra siyasi ekspertlər İranın addımlarına beynəlxalq hüquq müstəvisində qiymət verilməsinin vacibliyini önə çəkir. Bildirilir ki, Naxçıvanda hava limanının və məktəbin zərbələrə məruz qalması mülki obyektlərə hücum kimi dəyərləndirilməlidir. Bu isə İran üçün olduqca ciddi bir məsuliyyət yaradır.

Türkiyənin ardından Naxçıvanın hədəfə alınması da təsadüfi deyil - nəzərə alsaq ki, hazırda reallaşmaq üzrə olan Zəngəzur dəhlizi (TRIPP) layihəsi Türkiyə ilə Azərbaycanı məhz Naxçıvan üzərindən birləşdirəcək, bu mənada, İranın atdığı addımların hansı istiqamətə hədəfləndiyi bəlli olur. Bu isə onu təsdiqləyir ki, Naxçıvana endirilən dron zərbələri təsadüf sayıla bilməz - ekspertlərin fikrincə, bu, birmənalı şəkildə hazırlanmış ssenari üzrə həyata keçirilən plandır.

**P.İSMAYILOV**

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





## Şənbə üçün nəzm



# Həsrəti ömründən uzun, Təbrizim!







***Rəsul RZA***

Təbrizin yolları oyum-oyumdur,
Yanıq dağdan qalxan duman olaydım!
Həsrət könüllərdə ümid olmasam,
Heç olmazsa, zəif güman olaydım!

*1959*

### Təbrizim mənim
***Balaş Azəroğluna***

Laylası məhzun,
Nəğməsi məhzun.
Həsrəti ömründən uzun,
Karvandan üzülmüş ağ dəvəsi.
Gözlərində böyük ümidin uzaq töhfəsi
Neçə evinin küçə divarı kor.
Dodaqları quru,
bulaqları gur.
Arzularında qançır, qamçı.
Kədəri axın-axın,
sevinci damcı-damcı.
Bəzən günləri qanlı yuxu kimi,
bəzən həsrətli yuxuları gerçək olmuş,
Neçə dəfə sevincək olmuş.
Balaları sərgərdan,
Gəlinləri nigaran.
Qurtuluş yolları:
məhbəs, dar ağacı, gülləbaran.
Dan yeri qan boyalı.
Ümidindən, arzusundan dönməyən.
Ocağında - ürəyində odu sönməyən,
Səhəri uzun əsrlərin yolunda yubanan,
Qardaşına həsrət, bacısına həsrət,
Bayatıları - qədim məhəbbət.
Qoynu gah aydın havalı,
gah çənli, dumanlı.
Qəlbi gümanlı,
Taleyi böhranlı.
Özü bababir, nənəbir
adət-ənənə bir -
doğma qardaşım.
Pasportda o yanlı.
Arzulayanda əlim çatmayan,
Ağrısı, göynəyi qəlbimdə
gecə-gündüz yatmayan.
Dağları dağlarıma bənzər,
bağları, bağlarıma.
Ana sözü kimi
əziz olan adı - dodaqlarıma.
Köhnəm, təzəm, uzağım, yaxınım,
Ən gözəl şerim,
Yanıqlı mahnım.
Mənsizim!
Təbrizim!

*1964*

### Nigaran suallar

Son zamanlar
səni tez-tez
yuxuda görürəm, Təbrizim!
Yuxuma qəmli gəlirsən
hər gecə.
Suyun, çörəyin varmı?
Nəğmən necə?
Yenə “Qaragilə”dir,
yoxsa daha qəmlidir?
Göy məscid necədir?
Ərk qalası necə?
Yanıq dağ qupqurudur,
ya nəmlidir?
Tez-tez yuxuma girirsən,
Təbrizim!
Yoxsa incimisən,
uzun həsrət yorub səni?
Yoxsa dözüb-dözüb
indi yaman qəribsəmisən.
İnanmıram,
hələ ümidin var böyüyəsi,
arzun var boy atası.
Hardan düşdü yadıma
anamın göynəkli bayatısı!
“Mən bütöv bir yuvaydım,
yel vurdu paralandım.
Mən səndən ayrılmazdım,
zülümnən aralandım”.

*1975*

### Yaralı Təbriz

Mən görəndə
bağçaların, bağların
çiçək idi,
gül idi.
Küçələrdə, məclislərdə
səslənən
doğma, gözəl dil idi.
Fədailər
dəstə-dəstə keçirdi,
yeni adlı küçələrdən;
dodaqlarında nəğmə!
“Ey torpağı ləl, mərcan,
Azərbaycan!”

Səttarxan xiyabanı
bəzəkli, çilçıraqdı,
Qoçaq, mərd oğulların,
Firudinlərin sağdı.
Kəhrəba işıqların
gecələrin qoynuna
ulduz-ulduz yağırdı.
Oyanışlı günlərin
nə oldu,
hanı indi?
Gəldi qara günlərin,
Nə az bəxtiyar oldun,
sevindin.
Söylə, Təbrizim,
söylə,
ulduzlu mavi göydən
sənə kim yanğı saldı!?
Üstünü buram-buram
qara dumanlar aldı.
Naxış-naxış evlərin
alışdı, közə döndü.
Bağçaların, bağların
viranə düzə döndü.
Yanğınlar gur kükrədi,
yayıldı, gölə döndü.
Pərdələr arxasında
Gizlənmişdir işıqlar.
Sazını sındırdımı
tunc gövdəli aşıqlar!

Təbriz, qəşəng şəhərim!
Yüz bir şəhər içində
seçimli, tək şəhərim!
Sənin yaran azdımı,
vurdular bir yara da.
Qəzəbindən titrədi
Göy məscidin üstündə
Qızıldan aypara da.
Sənin dərdin azdımı,
taleyinə tarixlər
qara günlər yazdımı?
Sinəndə varkən hələ
göynəkli dil yarası,
Səttarxanlar yarası,
Firudinlər yarası,
yanıq, nakam arzular,
qəm, nisgillər yarası -
Yaraladılar səni,
Heyranların vətəni,
Sahiblərin vətəni!

Mən deyirdim, vaxt olar,
baharlı Novruz günü
gələrəm.
Həsrətindən qurtarıb
Qoynunda dincələrəm.
Yaraların ağırdır,
Təbrizim!
Nigaranlıq qəlbimi
ağrıdır,
Təbrizim!

İnanıram, keçəcək
matəmli günlərin də.
Açılacaq üfüqlər
bir aydın səhərində.
Çəkiləcək üstündən
O zəhərli buludlar.
Doğrulacaq arzular,
umudlar.
Yüksələcək bayrağı
yeni Səttarxanların.
Qaldıracaq səsini,
Öz gücünə güvənən,
bu günlərdən dərs alan,
gələcəyə inamlı -
qüdrətli cavanların.

*Göyçay, 11-13 oktyabr 1980*

### Ərk qalası

Təbriz - gözəl şəhər!

Vuruşdular:
son gülləyə;
son süngüyə,
son qundağa qədər.
Vuruşdular:
hər şey qırmızı geydi;
daşdan, torpağa qədər.
Vuruşdular:
alt dodaqdan
üst dodağa qalxa bilməyən
səsə qədər.
Vuruşdular:
onlardan yeddi dəfə - yetmiş qat
artıq olan,
süngüləri narın daraq dişi kimi
sıx olan düşmənlə.
Yaralılar ufuldamadı,
Can verənlər inləmədi.
Susuzlar “yandım”, demədi.
Öpdü qurumuş dodaqları
qan hopmuş torpağı.
Yaralarına basdılar
qan rəngli bayrağı.
Nə düşmən onlardan
bir aman sözü ala bildi,
nə bu ölümü yağı duydu,
nə qala bildi.
Söykənib qala divarına
öldülər ayaq üstə;
çiyin-çiyinə.
Ulduzlar şahid oldu,
bir sırada dayanmış
ölülərin qabağından,
yüz yerə bölünmüş dirilərin
çəkildiyinə.
Öldülər ayaqlarının altında
Vətən torpağı.
Başlarının üstündə
Vətən ulduzları.
Könüldən könülə keçdi
ümidləri, arzuları.
Gecə ağır-ağır keçdi
cənazələrin üstündən;
keçdi getdi yolu səhərə.
Günəş şəfəqdən bir örtük çəkdi
torpağı qoruyub, torpaqda dincələn
cənazələrə.

*1958*

# Nəşriyyat zənciri

***Bu zəncirin hansı həlqəsində olduğumuzu bilmirik. Belə görünür ki, heç zəncir də yoxdur və ya qırıq-sökük həlqələrdən ibarətdir...***



***Məqsəd Nur***

Hamı deyir, nəşriyyat işi dəyər zəncirində işlərimiz pisdir, hətta yarıtmazdır, amma o “hamı” da “n” sayda kitab nəşr edir. Belə çıxır ki, kitabdan daha çox dövriyyə zənciri yaradılır, vəziyyət isə heç də ürəkaçan deyil.

Kitab yamarkaları da keçirilir, maarifləndirmə və marketinq işləri də aparılır, amma layiqli bir ədəbiyyat müsabiqəsi yoxdur ki, yoxdur. Müsabiqə keçirmək üçün də gərək əsər, müəllif, oturuşmış milli nəşriyyatlar olsun. Bunların hamısı varmıdır, yoxmudur: daha dəqiq bilmək üçün yenə də “müsabiqə keçirməliyik” tezisinə, müəllif-nəşriyyat-kitab-oxucu zəncirinə qayıtmalıyıq.

Əslində nəşriyyatlarımız da, tərcüməçi, redaktor və yazarlarımız da birlikdə xeyli iş görüblər. Bütün naşirlərə, əqli mülkiyyət bazarında ən ucuz əməkçi qüvvə olan tərcüməçi və redaktorlara, oxu mədəniyyətinin artırılması üçün uğraşan hər kəsə təşəkkür etməliyik.

Bu tərəfdən baxsaq, bədgüman olmağa haqqımız yoxdur. Yola davam etməliyik. Xalq oxuyur və əsas da odur ki, daha çox insan oxumaq, mütaliə etmək istəyir. İnsanlar başa düşür ki, mütaliə həm də perspektiv vəd edir, kitab öyrədir. Proses ləng getsə də, meyil irəliyə doğrudur.

Bir nüfuzlu naşirimizin rəsmi rəqəmlərə əsaslanan statistikasına istinadən demək olar ki, son beş ildə, ümumən, Azərbaycanda kitab alanların sayı 20 faiz artıb. Lakin dünya statistikasına baxsaq, ölkəmiz hələ də ən az kitab oxuyanlar siyahısındadır. Bəs nə etməli?

Nə vaxta qədər ki, kitab bazarında ana dilində yazılmış əsərlərin satışı tərcümə edilmiş kitabların satışını üstələməyəcək, bəlkə də fərəhlənməyə dəyməz. Bu, təkcə dil, milli varlıq məsələsi deyil, həm də təhlükəsizlik məsələsidir. Tərcümə ədəbiyyatı da digər əcnəbi “yumşaq güc”lərlə yanbayan hərəkət edir, lap cizgi filmləri kimi, evimizin içindədir. Lakin bu gücdən qorxub-çəkinməyin, imtina etməyin də yeri yoxdur: bəzən öyrənmək, dərs çıxarmaq üçün zərurətlər də fürsətə çevrilə bilir.

Əgər bu kimi zərurətlərə diqqət yetirsək, “Mədəniyyət-2040” konsepsiyasının strateji hədəflərinə daha tez çata bilərik. Konsepsiyada vurğulanır ki, Azərbaycan dilində elmi, elmi-publisistik və bədii əsərlərin sayının, keyfiyyətinin artırılması, araşdırma və elmi tədqiqatlar üçün maliyyə vəsaitinin təmin edilməsi və bu məqsədlə sahibkarlarla sıx əməkdaşlıq qurulması, eləcə də qrant proqramları və dövlət - özəl tərəfdaşlığından istifadə edilərək maliyyələşdirilmənin aparılması həyata keçirilməlidir, ədəbiyyata və nəşriyyat işinə dair sənət növləri inkişaf etdirilməli, nəşriyyat işi dəyər zənciri müasirləşdirilməlidir.

Bəs bu elmi-publisistik, bədii əsərlərin keyfiyyətini artıracaq müəllifləri harada axtaraq, onları necə təsnifatlaşdıraq? Müəllifi axtarmaqla deyil ki, o özü ortaya çıxmalı, hələ bundan əvvəl də yetişməlidir. “Yetişdirilməlidir” desək, yanılmış olarıq. Müəllif istixana tərəvəzi deyil. Amma mədəniyyət siyasətimizdə institutlaşma, münbit şərait, sosial-iqtisadi islahatlar və sair bu kimi şərtlər “dövrə uyğun” müəllifin formalaşdırılmasına təkan verə bilər. Ümumən götürdükdə isə Ədəbiyyatın və Elmin axtardığı müəllif öz dövrünün adamı olmur. Görünür, bu mexanizmlər üzərində daim işləməli və daha yaxşı gələcəyə ümid etməliyik. Gələcək isə həm də dəyərlər üzərində qurulan müasirləşmədən keçir...

Hazırda dünyada müasir nəşriyyatlar elektron ticarətin aktivləşməsi, tələb üzrə çap edilmənin inkişafı, dəyər zəncirinin rəqəmsal transformasiyaya keçidi ilə məşğuldur. Buraya süni intellekt təhlilləri, istehlakçı (oxucu) ilə birbaşa münasibətlər qurulması, nəşriyyatlardan kənar (sərbəst) nəşr (özününəşr) modellərinin inkişafı və interaktiv müəllif hüquqlarının tənzimlənməsi də daxildir.

Biz isə hələ də kitab dükanlarının və satıcıların yarıtmazlığından, oxucuların azlığından danışırıq. Bəlkə ona görə ki, olub-qalan nəşriyyat zəncirlərimizin səsi də elə uzaq keçmişdən gəlir? Təki, “nəşriyyat dəyər zənciri” dediyimiz nə olacaqsa-olsun, bircə müəllifin boğazından asılmasın və əsl DƏYƏRə çevrilsin...

# Xocalıya növbəti köç

## Təzəbinə və Seyidbəyli kəndlərinə 67 nəfər qayıtdı

Martın 6-da Xocalı rayonuna növbəti köç prosesi həyata keçirilib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, Xocalı rayonunun Təzəbinə kəndinə 51 nəfərdən ibarət 9 ailə, Seyidbəyli kəndinə isə 16 nəfərdən ibarət 4 ailə köçürülüb. Beləliklə, ümumilikdə 13 ailə olmaqla, 67 nəfər doğma yurduna qayıdıb.








Xocalı şəhərində ailələrə yeni evlərinin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev sakinləri doğma torpaqlarına qayıtmaları münasibətilə təbrik edib, onlara yeni evlərində xoşbəxt və firavan həyat arzulayıb. O, həmçinin Xankəndi şəhərinin, Xocalı və Ağdərə rayonlarının ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq və tikinti işləri barədə məlumat verib. Bildirib ki, sakinlərin burada rahat, təhlükəsiz yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Hər iki kənddə sakinlər elektrik enerjisi, təbii qaz və içməli su ilə tam təmin olunublar.

Qeyd edək ki, “Böyük Qayıdış” proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə mərhələli şəkildə köç prosesi davam etdirilir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4966**
**Sifariş: 328**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova